

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

29 sentyabr 2026-cı il, çərşənbə axşamı
№ 176 (7243)
Qiyməti 60 qəpik


## Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin fəal iştirakçısı...





## İlham Əliyev: Regionumuzda geosiyasi vəziyyət dəyişsə, biz təchizatçılar üçün yenə də çox cəlbedici olacağıq

Bax səh. 3-4

## Vətən müharibəsinin 3-cü günü...

### 29 sentyabr 2020-ci il

- Səhər saatlarında cəbhənin Füzuli-Cəbrayıl istiqamətində yerdəyişmə etmək istəyən düşmənin 1 tankı, 1 avtomobil texnikası və 10 nəfərədək şəxsi heyəti artilleriya zərbəsi ilə məhv edilib. Saat 07.00-08.00 radələrində cəbhənin Füzuli-Cəbrayıl istiqamətində Ermənistan qoşunlarının daha dörd tankı vurulub. Düşmənin Xocavənd rayonu ərazisində yerləşdirdiyi 3-cü “Martuni” motoatıcı alayı darmadağın edilib.
- Almaniya Kansleri Angela Merkel Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib. Dövlətimizin başçısı bildirib ki, Ermənistanın hərbi təxribatı ilə bağlı hadisələrin gələcək inkişafına görə məsuliyyət Ermənistanın siyasi və hərbi rəhbərliyinin üzərinə düşür, Azərbaycan Ordusu öz torpaqlarında vuruşur və Ermənistan ordusu Azərbaycan torpaqlarında olmamalıdır.
- Azərbaycan Prezidenti İlham Əliyev “Rossiya-1” telekanalının “60 dəqiqə” proqramında Vətən müharibəsi ilə bağlı sualları cavablandırıb.
- Baş Prokurorluq düşmənin dinc əhalini atəşə tutması nəticəsində 12 mülki şəxsin həlak olması, 35 nəfərin xəsarət alması ilə bağlı məlumat yayıb.

## Qlobal investorlar üçün strateji platforma

Bax səh. 4



Bax səh. 6

## Qarşılıqlı etimad xüsusi məsuliyyət tələb edir!

## 37 ikitərəfli görüş, imzalanan 17 sənəd...

Bax səh. 5




Bax səh. 2

## YAP nümayəndələri Zəfər parkını ziyarət ediblər

## İtaliyadan Azərbaycana dost təşəkkürü

Bu günlərdə İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloni növbəti dəfə Azərbaycan Prezidentinə xüsusi təşəkkürünü ifadə edib. Baş nazir İtaliyanın “Eni” şirkətindən sonra Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin (SOCAR) də törəmə şirkəti “Italiana Petroli” (IP) şəbəkəsində benzin və dizel yanacağının qiymət həddini təyin etmək qərarına gəldiyini bildirib. “Eni”dən sonra IP də ölkə miqyasında yanacağın qiymətlərini məhdudlaşdırmaq qərarına gəlib. Bu, italyan ailələrinə diqqətin və yanacaq xərclərinin azaldılmasına konkret töhfə verə biləcəyimizin təsdiqinin vacib əlamətidir”, - deyə Meloni bildirib.

O, iki ölkə arasında əməkdaşlığı gücləndirən bu addıma görə Azərbaycan...

Bax səh. 2

## İkinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu dünya mediasının diqqətində

Bakıda keçirilən İkinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu, forumda səslənən fikirlər, imzalanan müqavilələr, investisiya sənədləri və Prezident İlham Əliyevin bu mötəbər tədbirdə iştirakı və keçirdiyi görüşlər dünya mediasının diqqətində olub. Türkiyənin, Rusiyanın, Avropa, Mərkəzi Asiya və digər ölkələrin media orqanları bu barədə geniş materiallar dərc edib.

Belə ki, Türkiyənin “SonDurak” media resursunda yazılıb ki, Prezident İlham Əliyevin himayəsi ilə keçirilən İkinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu çərçivəsində 10,8 milyard dollar həcmində 23 investisiya sənədi...

Bax səh. 5

## Fransua Olland prezident seçkilərində iştirak edəcək?

Fransanın sabiq prezidenti Fransua Olland 2027-ci il prezident seçkilərində iştirak edə biləcəyini bildirib.

O bu barədə İtaliyanın “Repubblica” qəzetinə müsahibəsində bildirib.

Ollandın sözlərinə görə, söhbət ölkəyə kimin rəhbərlik edə biləcəyindən, eləcə də fransızların gələcəyə olan inamını qaytara biləcəyindən gedir.

“Prezident seçkilərində iştirak etmək elə bir qərardır ki, ona sadə yanaşmaq olmaz, xüsusən də sabiq dövlət başçısı üçün. Özümü birinci turda sadəcə iştirak etmək xatirinə iştirak edən namizəd kimi təsəvvür etmirəm...

Bax səh. 6

## Vuçiç niyə istefa verdi?

Serbiya Prezidenti Aleksandar Vuçiç istefa verdiyini açıqlayıb. Onun istefasından sonra Milli Assambleyanın sədri Ana Brnabiç yeni prezident seçilənədək dövlət başçısının səlahiyyətlərini müvəqqəti icra edəcək.

Konstitusiyaya əsasən, yeni prezident seçkiləri dekabrın 27-dək keçirilməlidir.

Bundan əvvəl isə Serbiyada növbədənkənar parlament seçkilərinin oktyabrın 25-də keçirilməsi planlaşdırılır.

Aleksandar Vuçiç ilk dəfə 2 aprel 2017-ci il tarixində keçirilən seçkilərdə Serbiya Prezidenti seçilib. Həmin seçkilərdə o, səsvermənin elə ilk turundaca 55 faizdən çox səs toplayaraq qalib gəlib və 31 may 2017-ci ildə rəsmən...

Bax səh. 7



## Aİ növbəti genişlənmə planı üzərində işləyir

Bax səh. 7

## Yunanıstanda siyasi rəqabət güclənir



Bax səh. 6

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Formula 1 Azərbaycan Qran-Prisinin əsas yarışına baxıblar







Sentyabrın 26-da Bakı Şəhər Halqasında Formula 1 Azərbaycan Qran-Prisinin əsas yarışı keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri yarışı izləyiblər.

Qeyd edək ki, Formula 1 Azərbaycan Qran-Prisinin 10-cu - yubiley yarışına sentyabrın 24-də start verilib. 17 mindən çox xarici azarkeş Formula 1 yarışlarını tribunalardan canlı izləyə bilib. Yarışda hər biri iki pilotdan ibarət 11 komanda mübarizə aparıb.

Komandalar ilk gündə iki sərbəst yürüşdə yarışıblar. Bu yürüşlərdə yüksək nəticə göstərən pilotlar ardınca sıralama turunda mübarizəni davam etdiriblər. Sıralama turunun yekununda "Mercedes"in pilotu Corc Rassell 6 kilometrlik Bakı trekində poul qazanaraq əsas yarışı ilk pilldən başlamaq hüququ əldə edib. "Ferrari"nin pilotu Şarl Lekler ikinci, "McLaren" təmsilçisi Oskar Piastri üçüncü yerdə qərarlaşıblar.

Sentyabrın 26-da keçirilən əsas yarışda pilotlar Bakı şəhər halqasında 2 saat ərzində 51 dövrə vurublar. Yarış "Mercedes"in pilotu Corc Rassellin qələbəsi ilə başa çatıb. "Red Bull"dan Maks Ferstappen ikinci, onun komanda yoldaşı İsak Hacar isə üçüncü olub.

Xatırladaq ki, Azərbaycan Formula 1 yarışlarına onuncu dəfədir ev sahibliyi edir. 2016-cı ildə təşkil olunan və Avropa Qran-Prisi adlandırılan ilk yarışda "Mercedes" komandasının pilotu Niko Rosberq birinci olub. Yarış növbəti ildən Azərbaycan Qran-Prisi adlandırılıb.

# Prezident və Birinci xanım Anım Günü ilə əlaqədar Bakıdakı Zəfər parkında




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 27-də Anım Günü ilə əlaqədar Bakıdakı Zəfər parkında olublar.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Zəfər abidəsinin önünə əklil qoydu, şəhidlərin xatirəsini ehtiramla yad etdi.

Sonra birinci xanım Mehriban Əliyeva şəhidlərimizin xatirəsini dərin hörmətlə andı.

# Ankaradan Bakıya zəng...




Sentyabrın 27-də axşam radələrində Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Prezidentin Mətbuat Xidmətinin məlumatına görə, Türkiyə Prezidenti Azərbaycanda Anım Günü ilə əlaqədar şəhidlərin xatirəsini ehtiramla yad etdiyini bildirib.

Dövlətimizin başçısı telefon zənginə görə Türkiyə Prezidentinə təşəkkür edib.

# İlham Əliyev Beynəlxalq Avtomobil Federasiyasının prezidenti ilə görüşüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 26-da Beynəlxalq Avtomobil Federasiyasının prezidenti Məhəmməd Ben Sulayem ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı hər il olduğu kimi, bu dəfə də paytaxtımızda Formula 1 yarışlarının yüksək səviyyədə təşkil edildiyi qeyd olundu.

Ölkəmizin turizm potensialının təbliği baxımından bu yarışların əhəmiyyəti vurğulandı.

Görüşdə Beynəlxalq Avtomobil Federasiyasının Azərbaycan Avtomobil Federasiyası və klublar ilə əməkdaşlığından məmnunluq ifadə edildi, tərəfdaşlığın perspektivləri müzakirə olundu.

# İlham Əliyev Beynəlxalq Xizək və Snoubord Federasiyasının prezidenti ilə görüşüb



Sentyabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Beynəlxalq Xizək və Snoubord Federasiyasının Prezidenti Aleksandr Oşpelt ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı ölkəmizin beynəlxalq əhəmiyyətli nüfuzlu idman tədbirlərinə, o cümlədən qış idman növü üzrə yarışlara uğurla ev sahibliyi etdiyi xatırlanaraq, bu xüsusda Bakıda keçirilən Formula 1 yarışlarının da yüksək səviyyədə təşkil olunduğu vurğulandı.

Azərbaycanda müasir qış-xizək infrastrukturunun yaradıldığı qeyd edildi, Beynəlxalq Xizək və Snoubord Federasiyasının xətti ilə "Şahdağ" Turizm Mərkəzində bir sıra nüfuzlu yarışların keçiriləcəyi vurğulandı.

Ötən il Azərbaycanın Dövlət Turizm Agentliyi ilə Beynəlxalq Xizək və Snoubord Federasiyası arasında tərəfdaşlıq haqqında imzalanmış müqavilənin ölkəmizdə qış turizmi və qış idman növləri üzrə potensialın inkişaf etdirilməsi baxımından rolu qeyd olundu.

Görüşdə ölkəmizlə federasiya arasında əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

# İtaliyadan Azərbaycana dost təşəkkürü



Bu günlərdə İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloni növbəti dəfə Azərbaycan Prezidentinə xüsusi təşəkkürünü ifadə edib. Baş nazir İtaliyanın "Eni" şirkətindən sonra Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin (SOCAR) də törəmə şirkəti "Italiana Petroli" (IP) şəbəkəsində benzin və dizel yanacağının qiymət həddini təyin etmək qərarına gəldiyini bildirib. "Eni"dən sonra IP də ölkə miqyasında yanacağın qiymətlərini məhdudlaşdırmaq qərarına gəlib. Bu, italyan ailələrinə diqqətin və yanacaq xərclərinin azaldılmasına konkret töhfə verə biləcəyimizin təsdiqinin vacib əlamətidir", - deyə Meloni bildirib.

O, iki ölkə arasında əməkdaşlığı gücləndirən bu addıma görə Azərbaycan Prezidenti İlham Əliyevə, eləcə də SOCAR prezidenti Rövşən Nəcəfə təşəkkür edib.

Daha əvvəl SOCAR IP paylama şəbəkəsində benzin və dizel yanacağının qiymətlərini məhdudlaşdırmağa hazır olduğunu açıqlayıb. Şirkət qeyd edib ki, qiymət həddi minlərlə operatoru əhatə edən təchizat zəncirinin davamlılığını təmin etmək zərurəti nəzərə alınmaqla müəyyən olunacaq.

SOCAR vurğulayıb ki, bu, şirkətin İtaliya hökumətinin geosiyasi qeyri-sabitlik və bunun qlobal təchizat zəncirlərinə təsiri səbəbindən altı aydan çoxdur ki, yüksək yanacaq qiymətləri ilə üzləşən ailələrə və müəssisələrə dəstək olmaq çağırışına cavabıdır. Verilən məlumata görə, qiymət məhdudiyyətləri IP şəbəkəsindən başlayaraq mərhələlərlə tətbiq ediləcək.

**Azərbaycanın dünyada artan rolu**

Son vaxtlarda dövlətimizin başçısı İlham Əliyevin ünvanına dünya liderlərindən belə təşəkkürlər tez-tez gəlir ki, bu da təsadüfi deyil. Respublikamızda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət Azərbaycanı dünyada sayılıb-seçilən ölkələr sırasına yüksəldib. Hazırda Azərbaycanın inkişafı elə bir yüksək səviyyəyə çatıb ki, ölkəmizin orta güc dövləti olaraq beynəlxalq miqyasda rolu getdikcə artır. Respublikamız çoxvektorlu siyasi kursa malikdir, ayrı-ayrı ölkələrlə və beynəlxalq təşkilatlarla həm ikitərəfli, həm də çoxtərəfli platformalarda əməkdaşlığı genişləndirir.

Eyni zamanda, ölkəmizin qlobal proseslərə müsbət təsir göstərməsi, Şərqlə Qərb arasında körpülər yaratması, daim qarşılıqlı maraqlara və suverenlik prinsipinə əsaslanan dialoqu təşviq etməsi dünyada təqdirlə qarşılanır. Bu gün Azərbaycanın beynəlxalq birliyə töhfələri müxtəlif sahələri əhatə edir. O cümlədən respubllikamız mürəkkəb qlobal geosiyasi vəziyyətdə həm son dərəcə əlverişli coğrafi mövqedə yerləşməsi, həm də apardığı siyasətlə Avrasiyanın əvəzolunmaz bağlantı mərkəzi qismində çıxış edir. Digər tərəfdən, respublikamız ciddi təchizat problemləri ilə üzləşən Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Eyni zamanda, Azərbaycan özünün multikultural siyasəti, geniş əhatə dairəsinə malik olan humanitar diplomatiyası ilə birləşdirici rol oynayır. Ölkəmizə beynəlxalq səviyyədə rəğbətin artmasının ən əsas səbəblərindən biri isə, heç şübhəsiz ki, Azərbaycan Liderinin müharibə başa çatandan dərhal sonra Cənubi Qafqazda sülh quruculuğu təşəbbüsündən çıxış etməsidir. Bu, dünya praktikasında analoqu olmayan bir nümunədir. Ötən il avqustun 8-də Vaşinqtonda baş tutan yüksəksəviyyəli görüş və Ağ Evdə imzalanan sənədlər bir daha təsdiqlədi ki, beynəlxalq birlik Azərbaycanın sülh gündəliyini qəbul edir və təqdirlə qarşılayır.

**Hər iki ölkə strateji tərəfdaşlıq münasibətlərinin dərinləşməsində maraqlıdır**

Azərbaycan həm geniş İslam coğrafiyası, həm də Avropa İttifaqı (Aİ) ilə sıx əlaqələr qurması ilə də dünyaya fərqli nümunə təqdim edir. O cümlədən respublikamız Böyük Yeddiliyin üzvü olan İtaliya ilə strateji tərəfdaşlıq münasibətlərinə malikdir. Ələmətdar haldır ki, hər iki dövlət bu münasibətləri dərinləşdirməkdə maraqlıdır. Siyasi dialoqun ilbəil artan dinamikası bunu əyani şəkildə təsdiqləyir. İndiyədək iki ölkə arasında 2014-cü və 2020-ci illərdə olmaqla strateji tərəfdaşlığa dair iki bəyannamə imzalanıb. Qarşılıqlı münasibətlərin əsasını təşkil edən bu iki bəyannamədə və digər sənədlərdə təsbit edilmiş məsələlər uğurla həyata keçirilir. Prezident İlham Əliyevin mətbuata verdiyi bəyanatında vurğuladığı kimi, Ciorcia Meloninin 2026-cı ilin may ayında Ermənistanda öz proqramını başa vurduqdan sonra Azərbaycana səfərə gəlməsi çox böyük rəmzi məna daşıyır, eyni zamanda, Azərbaycana göstərilən hörmətin və xoş münasibətin bariz təzahürüdür.

İki ölkə arasında siyasi dialoqun yüksək səviyyəsinə uyğun olaraq iqtisadi, humanitar və digər sahələrdə də əməkdaşlıq uğurla inkişaf edir. İtaliya Azərbaycanın bir nömrəli ticarət tərəfdaşıdır. Keçən il iki ölkə arasında ticarət dövriyyəsi təxminən 12 milyard dollar təşkil edib.

Təbii ki, əlaqələrimizin əsas istiqamətlərindən biri energetika sahəsində tərəfdaşlıqdır. Respublikamız İtaliyanın həm neft, həm də qaz təchizatında ikinci pillədə yer alır. Dövlətimizin başçısı bildirib ki, bizim üçün İtaliya bazarı həm neft, həm qaz üzrə birinci dərəcəli əhəmiyyət daşıyır. 2025-ci ildə Azərbaycan 25 milyard kubmetr təbii qaz ixrac edib ki, onun da 9,5 milyardı İtaliya bazarına ünvanlanıb. Gələcəkdə bu həcmin artırılması da müzakirə mövzusudur.

Hazırda SOCAR-ın İtaliyadakı fəaliyyəti "Italiana Petroli" şirkəti vasitəsilə tam fasiləsiz şəkildə davam etdirilir. Şirkət İtaliyanın enerji bazarında geniş logistika və pərakəndə satış infrastrukturu ilə fəaliyyət göstərən aparıcı operatorlarından biridir. IP ölkə üzrə 4500-dən çox yanacaqdoldurma məntəqəsini, neft emalı və məhsul saxlanması üzrə mühüm sənaye aktivlərini əhatə edən geniş şəbəkəyə malikdir.

Xatırladaq ki, SOCAR 2025-ci ilin sentyabrında İtaliyanın aparıcı enerji şirkətlərindən biri olan "Italiana Petroli" şirkətinin 99,82 faiz səhmlərinin "API Holding"dən alınması barədə saziş imzalayıb. Səhmlərin alınması prosesi bu ilin mayında tamamlanıb. Mayın 28-də isə Romada "SOCAR İtaliya" şirkətinin rəsmi təqdimatı olub.

*Mübariz ABDULLAYEV*

# Yeni Azərbaycan Partiyasının nümayəndələri Zəfər parkını ziyarət ediblər








**27 Sentyabr - Anım Günü ilə əlaqədar Yeni Azərbaycan Partiyasının nümayəndələri Bakıda Zəfər parkını ziyarət ediblər.**
**Zəfər abidəsinin önünə əklil və gül dəstələri qoyulub, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi ehtiramla yad olunub.**

# Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin fəal iştirakçısı...








## İlham Əliyev: Regionumuzda geosiyasi vəziyyət dəyişsə, biz təchizatçılar üçün yenə də çox cəlbedici olacağıq

Sentyabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında Bakıda keçirilən II Azərbaycan Beynəlxalq İnvestisiya Forumu çərçivəsində "Parçalanmış dünyada etimadın bərpası: Cənubi Qafqaz qlobal bağlantı və investisiya sabitliyinin dayağı kimi" mövzusunda tədbir təşkil olunub.

Prezident İlham Əliyev tədbirdə iştirak edib və moderator Adebayo Oqunlesinin suallarını cavablandırıb.

Moderatorun növbəti onillikdə iqtisadi artımla bağlı sualını cavablandıran dövlətimizin başçısı deyib ki, biz iqtisadi inkişafın ümumi tendensiyasına uyğunlaşmalı, uzunmüddətli və dayanıqlı artıma nail olmaq üçün neft-qaz sektorundan kənar sahələrdə olan potensialımızdan istifadə etməliyik: "Əsas prioritetlərin bir neçəsini qeyd edərdim. Onlardan biri bərpaolunan enerjidir. Bizim çox böyük potensialımız var. Təkcə Xəzər dənizinin Azərbaycan sektorunda biz 157 giqavatlıq enerji potensialına malikik. Bundan əlavə, quruda Günəş və külək elektrik stansiyaları artıq fəaliyyətdədir. Beləliklə, bizim hədəfimiz elektrik enerjisi istehsal etmək üçün təbii qaz istehlakını minimuma endirmək və həmin ehtiyatdan ixrac məqsədilə istifadə etməkdir. Qarşıdakı beş il ərzində Azərbaycanın hər yerində bərpaolunan enerji mənbələri olacaq.

İqtisadiyyatın ikinci mühüm hərəkətverici qüvvəsi, əlbəttə ki, logistika, nəqliyyat və bağlantılardır. Biz fiziki infrastruktur yaradaraq, investorlar üçün daha anlaşılan biznes mühiti formalaşdıraraq və dənizə birbaşa çıxışı olmayan ölkə olduğumuza görə qonşularla birlikdə işləyərək bunun üzərində kifayət qədər uzun müddət çalışmışıq. Qonşular olmadan biz böyük tranzit ölkəsi ola bilmərik. Beləliklə, bu, xüsusilə bəzi ənənəvi təchizat zəncirlərinin müəyyən risklərlə üzləşdiyi hazırkı geosiyasi vəziyyəti nəzərə alsaq, əlavə stimullaşdırıcı amil ola bilər.

Yerli və xarici investisiyalar üçün də bu əla fürsətdir. Əlavə elektrik enerjisi potensialına sahib olaraq biz sözsüz ki, iki istiqamətə diqqət yetiririk. Birincisi, süni intellekt data mərkəzləri ilə bağlı daxili tələbatı ödəmək üçün bu enerjidən maksimum dərəcədə necə istifadə etmək və onu necə ixrac etmək olar? Ötürücü xətlərimiz var, lakin onlar yetərli deyil. Beləliklə, hazırda biz yeni ötürücü xətlər üzərində işləyirik, mövcud olanları genişləndiririk və yenilərini inşa edirik. Bu, həmçinin gələcək iqtisadi inkişafın mühüm tərkib hissəsi ola bilər.

Ola bilsin ki, böyük potensiala malik sahələrdən biri də mədənçilikdir. Cəmi bir neçə gün bundan əvvəl mədənçiliklə əlaqədar dövlət proqramı qəbul edildi. Bu, çox sayda fəaliyyətə təkan verəcək dörd ili əhatə edən qısamüddətli bir proqramdır. Beləliklə, bunlar bizim inkişafımızın əsas istiqamətləridir və sözsüz ki, biz açıq-aşkar olan bir amili, - neft və qazı, - unutmamalıyıq, xüsusilə nəzərə alsaq ki, bu il çox sayda müqavilələr imzalanıb və bu gün də imzalanacaq. Yəni neft və qaz iqtisadiyyatımızda aparıcı rolunu qoruyacaq və əldə olunan gəlirlər yenidən iqtisadiyyata investisiya şəklində yönəldiləcək".

**Moderator:** Qlobal ticarət və təchizat zəncirlərinin yenidən formalaşdırıldığı bir vaxtda Azərbaycanın strateji rolunun necə dəyişəcəyini düşünürsünüz?

**Prezident İlham Əliyev:** İlk növbədə, biz ev tapşırığımızı yerinə yetirməli idik. Yəni fiziki infrastruktur qurulmalı idi. Ona görə də biz dəmir yollarına, dəniz limanlarına, hava yolu ilə yükdaşımalara və avtomobil yollarına böyük həcmdə investisiya yatırdıq. Dəmir yollarımızın 60 faizi elektrikləşdirilib və bu proses davam edir. Bizim bütün qonşularla, həmçinin ölkə daxilində dəmir yolu əlaqəmiz mövcuddur. Beləliklə, bu, mühüm bir mərhələ idi. Tranzit ölkəyə çevrilmək üçün bizim, sözsüz ki, qonşularımız və qonşularımızın qonşuları ilə yaxşı münasibətlərə ehtiyacımız var idi. Əks halda, dənizə çıxışı olmayan bir ölkə olaraq, nə qədər çox çalışsanız da, uğur qazana bilməzsiniz. Bu da həyata keçirildi. Bu gün bütün qonşularla münasibətlər çox aydın, ən əsası isə proqnozlaşdırılabiləndir.

Bundan əlavə, biz elə bir mühit və təşviq mexanizmi yaratmalı idik ki, təchizatçılar Azərbaycanı seçsinlər. Biz bunu hətta həmin geosiyasi dəyişiklikdən əvvəl etdik. Çünki beş il bundan əvvəl ənənəvi təchizat zəncirlərinin pozulacağını təsəvvür belə etmək çətin idi. Beləliklə, biz elə bir fiziki və inzibati mühit yaratmaq istədik ki, təchizatçılar Azərbaycan ərazisindən keçən multimodal daşımalardan istifadəni seçsinlər. Çünki Azərbaycan ərazisindən keçərkən həm də bərələrdən istifadə edilir.

Bu gün biz istər Şərq-Qərb, istərsə də Şimal-Cənub istiqamətlərində Azərbaycan vasitəsilə həyata keçirilən daşımalara tələbatın artdığını müşahidə edirik. Biz bu iki mühüm qovşaq üzərində yerləşirik. Yeri gəlmişkən, biz hər iki nəqliyyat dəhlizinin fəal iştirakçısı olan az sayda ölkələrdən biriyik. Azərbaycan ərazisindən keçən tranzit yüklərin həcmində sürətli artım var. Bu il həmin göstərici 16 milyon tona çatacaq. Lakin hədəfimiz 2030-cu ilədək, qeyd etdiyim kimi, hər iki istiqamətdə, - həm Şərq-Qərb, həm də Şimal-Cənub marşrutlarında, - daşımaların həcmini 25 milyon tona, bəlkə də daha yüksək səviyyəyə çatdırmaqdır. Bu məqsədlə biz qonşularımızla fəal əməkdaşlıq prosesindəyik. Siz Mərkəzi Asiyanı qeyd etdiniz. Ötən ilin noyabrından etibarən Azərbaycan Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Şurasının tamhüquqlu üzvüdür. Əslində bu, misli görünməmiş bir hadisədir. Çünki coğrafi baxımdan Qafqazda yerləşsək də, siyasi, iqtisadi və nəqliyyat nöqteyi-nəzərindən biz artıq böyük Mərkəzi Asiya regionunun bir hissəsiyik. Bundan əlavə, nəqliyyat sahəsində idarəetmə və rəqəmsallaşma, gömrük idarəçiliyi - bütün bunlar investorlar üçün aydın və başa düşüləndir. Azərbaycandakı qaydalar və tənzimləmələr, bütün bunlar bizim potensialımızı daha da gücləndirəcək. Regionumuzdakı geosiyasi vəziyyət dəyişib, beş il əvvəlki vəziyyətə qayıtsa belə, biz hələ də təchizatçılar üçün cəlbedici olmalıyıq.

**Moderator:** Bu çox maraqlıdır. Düşünürəm ki, qarşıya qoyduğunuz məqsədlərdən biri Azərbaycanın qlobal bazarlarla təmasını dərinləşdirməkdir. Siz bəzi rəqabət üstünlüklərini qeyd etdiniz: bərpaolunan enerji mənbələri, coğrafi yerləşməniz, əlbəttə ki, karbohidrogen sektoru. Xahiş edirəm, rəqabət üstünlüklərinin nədən ibarət olması ilə bağlı fikrinizi inkişaf etdirəsiniz, burada əyləşən xanımlara və cənablara həmin 30 trilyonun böyük hissəsinin nəyə görə Azərbaycana yatırmalı olduqlarını izah edəsiniz.

**Prezident İlham Əliyev:** Hesab edirəm ki, xüsusilə bugünkü dünyada ən önəmli amillərdən biri siyasi və iqtisadi sabitlikdir. Bu proses Azərbaycanda artıq 30 ildən çoxdur ki, davam edir. Biz 1990-cı illərdə müstəqilliyimizin erkən dövründən bəri çətinliklər yaşamışıq, Ermənistan ərazimizi işğal edib, azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparıb. 1990-cı illərin əvvəlində bizim 1 milyon qaçqın və məcburi köçkünümüz var idi. O zaman əhalimiz 8 milyon idi. Beləliklə bu, əslində humanitar fəlakət idi. Vətəndaş müharibəsi gedirdi və iqtisadiyyat tamamilə xaos içində idi.

Beləliklə, bunlar artıq keçmişdə qaldı. Bu gün siyasi və iqtisadi sabitlik mühüm amildir. Digər amil isə bizim maliyyə sistemimizin çox güclü olmasıdır və sizin də qeyd etdiyiniz kimi, bizim çox aşağı dövlət borcumuz var - 20 faiz. Lakin bu göstərici daxili borcla birlikdədir. Xarici borc ÜDM-in 5,6 faizini təşkil edir və əslində biz onu bir gündə sıfırlaya bilərik. Çünki bizim valyuta ehtiyatlarımız xarici borcumuzu demək olar ki, 20 dəfə üstələyir. Valyutamız sabitdir. 2017-ci ilin aprel ayından dollara münasibətdə məzənnə dəyişməyib. Məzənnə 1 dollar 1,7 manat idi, 2017-ci ilin aprelində belə idi və bu gün də belədir və belə də olmağa davam edəcək. Çünki bizim yaxşı ticarət balansımız var.

İnvestisiyalar. Neft və qaz sektorunun inkişafına gətirib çıxaran, 30 il bundan əvvəl imzalanmış müqavilələrə hələ də heç toxunulmayıb. Heç bir söz də dəyişdirilməyib və bu da investorları cəlb etmək üçün amillərdən biri idi. Artıq bizim çox etibarlı tərəfdaş olduğumuza dair etibarlı portfelimiz var. Beləliklə, hətta biz müqavilə parametrlərinin bəziləri ilə 100 faiz qane olmasaq belə, bu məsuliyyətin üstün tutulmalı olduğunu düşünürük. Hesab edirəm ki, xüsusilə bugünkü dünyada vacib amillərdən biri təhlükəsizlikdir. Azərbaycan dünyanın ən təhlükəsiz yerlərindən biridir. Kriminogen vəziyyət tamamilə nəzarət altındadır.

Eyni zamanda, yaxşı iqlimi də qeyd etməliyəm. Nisbətən kiçik ölkədə doqquz iqlim qurşağının olması, yaxşı mətbəxi, qonaqpərvər insanları və bu gün keçirilən Formula 1 yarışı, ənənəvi UFC turnirləri və bir çox digər tədbirlər kimi mühüm hadisələr. Beləliklə, mən bir çox üstünlüklər haqqında danışa bilərəm, lakin çox millətçi görünmək istəmirəm.

Düşünürəm ki, auditoriyada əyləşənlərin, - əgər bunu hələ də etməyiblərsə, - gəzmək və Azərbaycanı daha da kəşf etmək üçün vaxtı olacaq. Hesab edirəm ki, bu və bir çox digər amillər insan kapitalına, infrastruktura, süni intellektə, iqtisadiyyatın digər sektorlarına yatırılacaq daha çox investisiyalara gətirib çıxaracaq və bu kimi tədbirlərin əhəmiyyəti də ölkə daxilində təqdimatını keçirməkdir. Çünki siz xaricə getsəniz və xaricdə bəzi təqdimatlar etsəniz, oradakı auditoriya nisbətən məhdud olacaq və siz sadəcə gəlib ölkəniz haqqında yaxşı sözlər söyləmiş olacaqsınız. Lakin bu tədbiri Azərbaycanda keçirən zaman hər kəs özü üçün qərar verə bilər. Düşünürəm və ümid edirəm ki, bu qərarların əksəriyyəti müsbət olacaq.

**Moderator:** Çox gözəl. Bizə məsləhət verin. Sizin fikrinizcə, növbəti on ildə Azərbaycanda iki və ya üç cəlbedici investisiya fürsətləri hansılardır?

**Prezident İlham Əliyev:** Birincisi, bizim bir çox şaxələndirmə işlərini aparmaq istəyimizə və apardığımıza rəğmən bu, hələ də neft və qaz sahəsi olacaq. Bu gün iki mühüm müqavilə imzalanacaq. Biri böyük potensiala malik olan qeyri-ənənəvi neft və qaz yataqlarının işlənilməsi üzrə "Exxon" şirkəti ilə bağlanılacaq müqavilədir. Kəşfiyyat işləri uğurla nəticələnsə, bu, Azərbaycanda daha bir neft və qaz bumuna gətirib çıxara bilər.

Xoşbəxtlikdən bu gün qazıntı yanacağına qarşı əsas Avro-Atlantik trendi dəyişib, Prezident Trampın sayəsində. Qazla bağlı biz bu gün yenə də Abşeron yatağının işlənilməsinin ikinci mərhələsi üzrə "Total" şirkəti ilə müqavilə imzalayacağıq. Bu da Azərbaycanda qaz hasilatını üç-dörd il müddətində əlavə 5 milyard kubmetr artıracaqdır. Builki Bakı Enerji Həftəsində digər müqavilələr də imzalanmışdır. Odur ki, neft və qaz hələ də ən cəlbedici investisiya sahələrindən biri kimi investisiyaların həcmi nöqteyi-nəzərindən ən böyük seqment olacaqdır. Bu, uzun müddət belə olacaq.

Qeyd etdiyim digər potensial imkan isə elektrik enerjisi ilə bağlıdır. Burada regiondan daha geniş coğrafiyanı nəzərdə tuturam. Çünki bu coğrafiyada əlavə enerji gücünə malik ölkələrin sayı kifayət qədər məhduddur. Bir çoxları enerji qıtlığı ilə üzləşir. Bir çoxları enerji resurslarını xaricdən, o cümlədən Azərbaycandan alırlar. Bu üstünlük, əlbəttə ki, rəqəmsal inkişaf, data mərkəzləri, süni intellektin inkişafı üçün istifadə oluna bilər və biz artıq dünyanın aparıcı şirkətləri ilə danışıqların aktiv mərhələsindəyik. Beləliklə, bunu nömrə iki adlandırardım.

Mən artıq bərpaolunan enerji resurslarını qeyd etmişəm. Bərpaolunan enerji resursları dedikdə mən təkcə hasilatı deyil, ötürücülük və akkumulyasiya imkanlarını nəzərdə tuturam. Bizim artıq 250 meqavatlıq ehtiyatımız var, lakin bu, sadəcə başlanğıcdır. Biz elektrik enerjisinin mühüm təchizatçılarından birinə çevrilmək istəyirik. Neft, təbii qaz, neft məhsulları, neft-kimya məhsulları və gübrə ilə yanaşı, - ixrac etdiyimiz məhsulları nəzərdə tuturam, - ölkəmiz regionda bütün bu məhsulları ixrac edən azsaylı ölkələrdən biridir. Elektrik enerjisinin, xüsusilə də Avropanın premium enerji bazarlarına ixracı isə enerji təhlükəsizliyini, bağlantıları və qarşılıqlı asılılığı daha da gücləndirəcək.

Daxili ehtiyaclarımıza gəldikdə, mənim təsvir etdiklərimin hamısının daha geniş təsiri var. Daxili ehtiyaclarımıza gəldikdə, əlbəttə ki, prioritetlərdən biri ərzaq təhlükəsizliyidir. Çünki biz hələ iqlim dəyişmələrinin çətinliklərini hiss etmirik. Mən hər qış mövsümü xizək sürməyə gedirəm və dağlarımızdakı qarın eyni səviyyədə olduğunu görürəm. O, eyni səviyyədə qalır, ola bilsin, haradasa əriyir, lakin Azərbaycanda bu belə deyil. Beləliklə, biz iqlim dəyişmələrinin təsirinə hələ məruz qalmamışıq. Lakin su qıtlığı və bəzi digər amillər, əlbəttə ki, bizə ərzaq təhlükəsizliyi sahəsində daha çox işləri görməli olduğumuzu birmənalı şəkildə diktə edir. Bu ilin may ayında əsasən idxaldan asılılığı azaltmaq üçün dövlət proqramı qəbul olunmuşdur. Bilmirəm, belə toplantılarda kənd təsərrüfatı sahəsinə nə dərəcədə maraq var.

Lakin hesab edirəm ki, burada da böyük potensial var, xüsusilə indi, müxtəlif amillərə - quraqlığa, dizelin çatışmazlığına və təchizat zənciri ilə bağlı olan digər problemlərə görə bəzi məhdudiyyətlərin olduğu zaman. Biz bəzi ölkələrin ərzaqla bağlı təhlükədə olacağı vəziyyəti istisna etmirik. Biz bu vəziyyətdən qaçmaq istəyirik. Beləliklə, fikrimcə, bu da yerli və xarici investorlar üçün cəlbedici sahə ola bilər.

**Moderator:** Cənab Prezident, bu zalda infrastruktur sahəsində dünyanın bəzi aparıcı investorları əyləşib. "Brookfield" şirkətindən Konor Teskey, Adiya, Temasek. Bunu və bərpaolunan enerji resursları ilə bağlı "Masdar" və "ACWA Power" şirkətləri ilə işbirliyinizi nəzərə alaraq infrastruktur investorları Azərbaycanda infrastrukturun inkişafına yardım etmək üçün dövlət-özəl tərəfdaşlıqlarını başqa harada axtarmalıdırlar?

**Prezident İlham Əliyev:** Əslində, daxili tələbatımıza gəldikdə, düşünürəm ki, işlərin böyük əksəriyyəti artıq görülüb.

**Moderator:** Bizə ehtiyacınız varmı?

**Prezident İlham Əliyev:** Daxili tələbat baxımından? Bəlkə də, yox. Çünki ölkədə qazlaşdırma səviyyəsi ən yüksək göstəricilərdən biridir. Ölkənin 96 faizi qazlaşdırılıb. Ölkə 100 faiz elektrik enerjisi, genişzolaqlı internetlə əhatə olunub və biz ixrac edirik. Dəmir yolları ilə bağlı işlər demək olar ki, tamamlanıb. Hava limanları - bizim doqquz beynəlxalq hava limanımız var. Dəniz limanı genişləndirilir.

Beləliklə, daxili infrastruktura gəldikdə, bizdə vəziyyət yaxşıdır. Fikrimcə, maraq yarada biləcək sahə çoxmilli maraqlara xidmət edən infrastruktur ola bilər. Burada, ilk növbədə, nəqliyyat, logistika, fiziki və rəqəmsal infrastruktur məsələləri ön plana çıxır. Biz çoxlu sayda körpü, yanalma qurğuları və gəmilər inşa edə bilərik. Lakin rəqəmsallaşma və gömrük inzibatçılığı sahələrində mövcud müasir tendensiyaları lazımi səviyyədə nəzərə almasaq, yüklərin idarə olunması prosesini daha asan və sürətli etməsək, rəqabətdə uduzacağıq. Beləliklə bu, bir sahədir.

Digər bir sahə elektrikötürücü xətlərdir. Bu sahədə nəhəng potensial var. Çünki bu gün Azərbaycan təkcə Avropa üçün enerji mənbəyi deyil. İki ildən də az müddət əvvəl biz Özbəkistan və Qazaxıstanla Xəzər dənizinin dibi ilə keçəcək, Mərkəzi Asiyanı əvvəlcə Azərbaycanla, daha sonra isə Avropa ilə birləşdirəcək sualtı elektrik kabel xəttinin çəkilməsi ilə bağlı müqavilə imzalamışıq. Beləliklə, bütün bu işlər həm də böyük həcmdə maliyyələşmə deməkdir.

Artıq texniki-iqtisadi əsaslandırmadan sonrakı mərhələdə olan digər mühüm layihə Qara dəniz kabelidir. Bu kabel də Azərbaycandan Gürcüstana, oradan isə Rumıniyaya uzanacaq. Söhbət yenə yüksəkgəlirli enerji bazarına çıxışı təmin edəcək 4 giqavat gücündə elektrik kabelindən gedir. Enerjisaxlanc sistemləri də mühüm əhəmiyyət daşıyır. Bütün bunlar təkcə bizim üçün deyil, Azərbaycanın beynəlxalq miqyasda daha geniş iştirakının təmin edilməsi baxımından da zəruridir. Düşünürəm ki, infrastruktur sahəsində əsas diqqət məhz bu istiqamətlərə yönəldilə bilər.

**Moderator:** Cənab Prezident, Siz rəqəmsal infrastruktur və data mərkəzlərinə maraq göstərildiyini, Azərbaycanın malik olduğu, o cümlədən müəyyən hissəsi bərpaolunan mənbələr hesabına əldə edilən əlavə və aşağıqiymətli enerji təchizatından faydalanma imkanlarını qeyd etdiniz. Bildiyimə görə, dekabr ayında G20 çərçivəsində səfəriniz zamanı qlobal rəqəmsal infrastrukturun aparıcı şirkətlərinin rəhbərləri ilə görüşmək də planlarınız arasındadır. Azərbaycanın regionda rəqəmsal transformasiya və rəqəmsal fəaliyyət mərkəzinə çevrilməsi ilə bağlı baxışınız barədə bir qədər danışa bilərsinizmi?

**Prezident İlham Əliyev:** Biz bir neçə istiqamət üzrə fəaliyyət göstəririk. Əlbəttə, bunlardan biri potensialın, kadr imkanlarının formalaşdırılmasıdır və hazırda təhsil sahəsində çox iş görülür. Artıq bir müddətdir ki, fəaliyyət göstərən Kibertəhlükəsizlik Mərkəzi bu istiqamətdə atılmış ilk mühüm addım idi. Çünki təhsil və hazırlıqlı kadrların yetişdirilməsi hər şeydən önəmlidir. Peşəkar və ixtisaslı kadrlar olmadan qarşıya qoyduğumuz məqsədlərə heç vaxt nail ola bilmərik. Əlbəttə, bizim malik olduğumuz bir sıra praktiki üstünlüklər də var. Bunlara ucuz enerjinin əlavə həcmlərinin mövcudluğu, coğrafi mövqeyimiz, - Avropa ilə Asiyanın arasında yerləşməyimiz, - və digər amillər daxildir. Qərbə doğru uzanan fiber-optik kabelimiz var. Bu ilin sonunadək Xəzər dənizinin dibi ilə Azərbaycanı Qazaxıstanla birləşdirən kabeli istifadəyə verəcəyik. Bu da bizim üçün əlavə üstünlükdür.

Biz, şübhəsiz ki, qlobal iqtisadiyyatın inkişafının ümumi tendensiyalarına uyğun hərəkət etmək istəyirik. Bunun üçün əlbəttə, qlobal rəqəmsal infrastruktur şirkətləri ilə, sizin kimi qurumlarla və dünən görüşdüyüm digər şirkət rəhbərləri ilə fəal əməkdaşlıq etməliyik ki, Azərbaycana investisiya imkanları baxımından diqqət yetirilsin. Təhlükəsizlik və sabitlik, əlverişli investisiya mühiti, proqnozlaşdırılabilən vergi sistemi, həmçinin investisiya üçün əlverişli iqtisadi mühit barədə artıq qeyd etdiyim bütün bu amillər bunun üçün zəruri ilkin şərtləri yarada bilər. Beləliklə, əgər bütün bunlar kifayət qədər cəlbedici olarsa, biz uğur qazanacağıq. Əks təqdirdə isə tərəfdaşlarımızdan Azərbaycana uzunmüddətli investor kimi gəlmələri üçün daha nələrin edilməli olduğunu bizə bildirmələrini xahiş edəcəyik.

**Moderator:** Təbii ki, qlobal tərəfdaşlarınız yalnız kapital gətirməklə deyil, həm də texnologiya, ekspertiza və imkanlar təqdim etməklə Sizə dəstək ola bilərlər. Qarşınızda Sizi dinləməyə hazır və böyük maraq göstərən auditoriya var. Azərbaycana, Bakıya texnologiya və imkanlar gətirmək baxımından onlar nə etməlidirlər?

**Prezident İlham Əliyev:** İlk növbədə, Bakıda ofislər açsınlar.

**Moderator:** Biz bunu dünən müzakirə etdik.

**Prezident İlham Əliyev:** Bəli, dünən Brukfilddən olan dostumuzla da bunu müzakirə etdik. Düşünürəm ki, texnologiyalara gəlincə, biz onları əldə edə bilərik və bunu edirik də. Bu gün kifayət qədər böyük maliyyə resurslarına malik olduğumuz üçün demək olar ki, istənilən texnologiyanı əldə edə bilərik. Əlbəttə, əgər söhbət məxfi texnologiyalardan getmirsə.

Təcrübəyə gəldikdə isə bəli, bu, çox mühümdür. Burada neft-qaz sənayesindəki təcrübəmiz yaxşı nümunədir. 1994-cü ildə Hasilatın pay bölgüsü haqqında Saziş imzalananda Qərbin enerji şirkətlərində çalışan əməkdaşların 90 faizindən çoxu əcnəbilər idi. İndi isə yəqin ki, əcnəbi əməkdaşların payı təxminən 5 faizdir. Bu, ölkənin inkişafına və potensialının formalaşdırılmasına misilsiz töhfə oldu. Hazırda çoxsaylı Azərbaycan vətəndaşı müxtəlif şirkətlərdə qlobal miqyasda fəaliyyət göstərir. Biz, həmçinin nümayəndələrimizin mühüm vəzifələr tutmasından məmnunuq və bununla fəxr edirik.

Düşünürəm ki, xüsusilə Azərbaycanın savadlılıq səviyyəsinin 100 faizə yaxın olduğunu və təhsil sahəsində çox böyük işlərin görüldüyünü nəzərə alsaq, kadr hazırlığı və potensialın gücləndirilməsi son dərəcə mühüm olacaq. 2003-cü ildə ilk dəfə Prezident seçildikdən dərhal sonra gənclərimizin xaricdə təhsil alması məqsədilə Dövlət Proqramı qəbul etdik. O vaxtdan bəri minlərlə, bəlkə də on minlərlə gəncimiz xaricdə təhsil alıb və onların mütləq əksəriyyəti geri qayıdıb. Beləliklə, bu, satın ala bilməyəcəyimiz bir potensialın formalaşdırılmasıdır.

Təcrübəyə gəldikdə isə əlbəttə, aparıcı şirkətlərin ən yaxşı təcrübələri və qabaqcıl yanaşmaları bizim üçün çox vacib olacaq. Bu, düzgün istiqamətdə irəliləməyimizə və qeyd etdiyimiz sahələrdə, neft-qaz sektorunda yaratmağa nail olduğumuz mühitə bənzər bir mühit formalaşdırmağımıza imkan verəcək.

Beləliklə, iqtisadiyyatımız daha da şaxələndiriləcək. Baxmayaraq ki, bu gün ÜDM-ə nəzər salsaq, onun 70 faizindən çoxu qeyri-neft sektorunun payına düşür. Lakin ixracımıza nəzər yetirsəniz, görərsiniz ki, ixracımızın hələ də 90 faizindən çoxu neft və qazın payına düşür. Biz bu göstəricini yaxşılaşdırmalıyıq və ümid edirik ki, bizimlə əməkdaşlıq etmək qərarına gələcək qonaqlarımızın köməyi ilə buna nail olacağıq.

**Moderator:** Cənab Prezident, burada toplaşmış trilyonlarla dollar həcmində kapitalı təmsil edənlər Azərbaycan və onun gələcəyi ilə bağlı bu görüşdən hansı mesajla ayrılmalıdırlar? Mənim eşitdiklərimə əsasən, Azərbaycan biznes üçün açıqdır, investisiya üçün cəlbedici məkandır. Onlar başqa nələri nəzərə almalıdırlar?

**Prezident İlham Əliyev:** Hesab edirəm ki, onlar feyk xəbərlər yayan mediaya inanmamalıdırlar. Zənnimcə, belə tədbirlərin üstünlüklərindən biri də odur ki, burada iştirak edənlər hər şeyi öz gözləri ilə görə bilirlər. Onlar insanların nə dediyini eşidə bilərlər. Təkcə biznes ictimaiyyətinin nümayəndələrindən deyil, bu günlər ərzində istənilən şəxsdən ölkə haqqında, onun necə inkişaf etdiyi barədə fikirlərini öyrənmək olar: Ölkə düzgün istiqamətdə irəliləyirmi, yoxsa yox? Özləri nəticə çıxara bilərlər.

Biz ölkəmizi nə qədər tərifləsək, nə qədər xoş sözlər desək də, hər bir ölkənin ev sahibi, təbii ki, öz ölkəsi haqqında yaxşı sözlər deyir. Prezidentin investisiya forumuna gəlib "bu pisdir, o pisdir" deməsini

**davamı 4-cü səhifədə**

əvvəli 3-cü səhifədə

# Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin fəal iştirakçısı...

təsəvvür etmək çətin olardı. Biz bunları öz aramızda müzakirə edirik. Amma yenə də düşünürəm ki, ən yaxşı təəssürat insanın özünün gördüyü və hiss etdiyi təəssüratdır. Bizim etməli olduğumuz yalnız əlverişli mühit yaratmaqdır. Sadəcə bunun üçün müəyyən imkan və şərait yaratmalıyıq.

Amma düşünürəm ki, istənilən sahədən, fəaliyyətin istənilən istiqamətindən olan obyektiv müşahidəçi, - söhbət təkcə biznesdən getmir, - Azərbaycanın 1991-ci ildə Sovet İttifaqının tərkibindən çıxmasından sonra keçdiyi yolu nəzərdən keçirsə, o zaman ölkədə bazar iqtisadiyyatının, demək olar ki, mövcud olmadığını, azadlıqların olmadığını, hətta o dövrdə neft-qaz sənayesinin belə tamamilə dağılmış vəziyyətdə olduğunu görər. Bu gün isə hər kəs obyektiv şəkildə qiymətləndirə bilər ki, bəli, bu ölkə uğursuz dövlət deyil. Bu ölkə və onun insanları öz dövlətçiliyinə sadiqdirlər.

Bilirsiniz, Azərbaycan dünyada neftin hasil edildiyi ilk məkan olub, - o vaxt hələ müasir mənada ölkə deyildi, - və biz ilk neft buruğunun xatirəsini qoruyub saxlayırıq. Həmin yer buradan çox da uzaqda deyil. Bu, 1846-cı ildə baş verib, hətta Pensilvaniyadan da əvvəl. Əgər həmin vaxt Azərbaycan müstəqil olsaydı, bu gün vəziyyətin necə olacağını təsəvvür edə bilərsinizmi? Əgər 1920-ci ildə müstəqilliyimizi qoruya bilsəydik necə? Çünki 1918-ci ildə burada müsəlman dünyasında ilk demokratik respublika yaradılmışdı, lakin cəmi iki il mövcud oldu. Sonra müstəqilliyimiz əlimizdən alındı və biz yenidən böyük bir imperiyanın tərkibinə daxil olduq. Əgər həmin dövrdə müstəqil olsaydıq və öz sərvətlərimizin sahibi ola bilsəydik, bu gün Azərbaycanın necə bir ölkə olacağını təsəvvür edə bilərsinizmi?

Bütün bunlardan məhrum edildik. İkinci Dünya müharibəsi illərində Azərbaycan sovet ordusunun yanacaq tələbatının 80 faizindən çoxunu təmin edirdi. Bu olmasaydı, İkinci Dünya müharibəsinin nəticəsi tamamilə fərqli ola bilərdi. Nasist ordusu nə üçün Qafqaz dağlarına qalxmaq istəyirdi, nə üçün? Sadəcə təlim xatirinəmi? Xeyr. Onlar Bakıya Bakı neftini ələ keçirmək üçün gəlirdilər. Əgər buna nail olsaydılar, sovet ordusunun yanacaq təchizatı tamamilə kəsiləcəkdi və bu, çox ağır nəticələrlə müharibənin taleyini dəyişə bilərdi.

Bütün bunlar bizdən alındı. Bəs, 1991-ci ildə müstəqilliyimizi bərpa etdikdə nə əldə etmişdik? Tənəzzülə uğramış neft sənayesi, sıfra yaxın qaz hasilatı. Qazı xaricdən alırdıq, enerji qıtlığı var idi, vətəndaş müharibəsi gedirdi, Ermənistanın təcavüzü və torpaqlarımızın işğalı ilə üzləşmişdik. Bu işğal 30 il davam etdi və biz torpaqlarımızı güc yolu ilə azad etdik. Azərbaycan tamamilə süquta uğramaq təhlükəsi ilə üzüzə idi. Beləliklə, 1991-ci ildə müstəqilliyimizi bərpa etdikdə ölkə tamamilə iflasa uğramağın astanasında idi. Lakin ayağa qalxmağı bacardıq və bu gün möhkəm dayanmışıq.

Düşünürəm ki, ölkənin, ən azı XX əsr tarixinin özü kifayət qədər aydın şəkildə göstərir ki, bu ölkənin insanları bacarıqlıdırlar, onlar müstəqil yaşaya, ləyaqətlə yaşaya, müharibələr apara və qısa müddət ərzində müharibələrdə qalib gələ bilərlər. Onlar ərazi bütövlüyünü bərpa edə bilərlər. Yəqin ki, bu, bu əsrin və bəlkə də XX əsrin böyük bir hissəsinin tarixində yeganə belə haldır. Onlar milli maraqlara qətiyyətlə sadiqdirlər. Onlar dünyaya açıqdırlar.

Azərbaycanda çoxsaylı əcnəbi mütəxəssislər yaşayır və çalışırlar. Düşünürəm ki, bunu kitabdan və ya məqalədən oxumaqla dərk etmək mümkün deyil. Bunu yalnız ölkəyə gəlib müəyyən müddət burada qalmaqla hiss etmək olar. Buna görə də arzu edirəm ki, qonaqlarımız Bakıda bir müddət qalsınlar və bəlkə də yenidən gəlsinlər. Əlbəttə, onların geri qayıtmasını, bizimlə əməkdaşlıq etməsini və yeni inkişaf yolumuzda bizimlə birgə addımlamalarını istərdik.

**Moderator:** Cənab Prezident, Sizinlə vaxt keçirmək böyük məmnunluq idi. Bu, həqiqətən də möhtəşəm bir hekayədir. Düşünürəm ki, tarixi kontekst və Sizin bu nailiyyətləri həmin kontekstdə təqdim etməyiniz əldə olunan nəticələri daha da əhəmiyyətli göstərir. Hazırda investisiya sammitlərinin keçirildiyi bir dövrdəyik. Ötən həftə Torontoda idi. Düşünürəm ki, gələn ay Almaniyada olacaq. Hesab edirəm ki, Siz investisiya sammiti keçirən bütün digər ölkələr üçün də çox yüksək standart müəyyən etdiniz. Təbrik edirəm və Azərbaycana investisiya qoymağı səbirsizliklə gözləyirik.

Təşəkkür edirəm, cənab Prezident.

# Qlobal investorlar üçün strateji platforma

## II Beynəlxalq İnvestisiya Forumu Azərbaycanın regionda cəlbedici investisiya mərkəzinə çevrildiyini nümayiş etdirir

Sentyabrın 25-26-da Bakıda İkinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu keçirilib. İqtisadiyyat Nazirliyi və İxracın və İnvestisiyaların Təşviqi Agentliyi - AZPROMO-nun təşkilatçılığı ilə keçirilən forum "Parçalanmış dünyada etimadın bərpası: Cənubi Qafqaz qlobal bağlantı və investisiya sabitliyinin dayağı kimi" mövzusuna həsr olunub. Forum dünyanın aparıcı investorlarını, dövlət və beynəlxalq maliyyə institutlarının nümayəndələrini, biznes liderlərini bir araya gətirib. Plenar iclas və panel sessiyalarında Orta Dəhliz, enerji və yaşıl keçid, süni intellekt və rəqəmsal transformasiya, infrastruktur, sənaye və azad iqtisadi zonalar, kritik xammal, aqrobiznes, maliyyə əməkdaşlığı, kiçik və orta biznesin inkişafı, turizm, daşınmaz əmlak və insan kapitalına investisiyalar barədə fikir mübadiləsi aparılıb, Azərbaycanın etibarlı enerji tərəfdaşı və tranzit qovşağı kimi formalaşmış mövqeyinə toxunulub.




### Güclü sabitlik və dayanıqlı iqtisadi inkişaf investorlarda dərin inam yaradır

Prezident İlham Əliyevin II Azərbaycan Beynəlxalq İnvestisiya Forumu çərçivəsində keçirilən tədbirdə iştirakı və dünyanın nüfuzlu şirkət üzvləri tərəfindən ünvanlanan sualları cavablandırması bir daha Azərbaycanın sərmayədar ölkə imicini təsdiq etməklə yanaşı, sərmayə iqlimi barədə beynəlxalq iqtisadi icmaya ətraflı məlumatların çatdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Forumda son 20 ildə Azərbaycanın qazandığı uğurların təqdimatı isə xarici iş adamlarında yürüdülən düzgün iqtisadi siyasətin təntənəsini təşviq edən fürsət sayıla bilər. Qeyd edildiyi kimi, Azərbaycan bu müddətdə əlavə dəyər istehsalını 10 dəfə artaraq 7 milyarddan 76 milyarda yüksəldib. Əlavə dəyərin strukturunda adambaşına düşən ÜDM səkkiz dəfədən çox artaraq 900 dollardan 7500 dollara yüksəlib, yoxsulluq səviyyəsi 45 faizdən 5 faizə endirilib. Dövlət Neft Fondunun aktivləri 90 dəfə artaraq 840 milyon dollardan 75 milyard dollara yüksəlib. Xarici borc ÜDM-in 5,6 faizini təşkil edir və valyuta ehtiyatlarımızı 20 dəfə üstələyir. Valyutamız sabitdir. 2017-ci ilin aprel ayından dollara münasibətdə məzənnə dəyişməyib. Məzənnə 1 dollar 1,7 manatdır və belə də davam edəcək.

Bütün bu amillər - siyasi sabitlik, təhülkəsizlik, iqtisadi mühitin əlverişliliyi xarici investorlar üçün də xüsusi diqqətdə saxlanılır və onlar daha stabil ölkələrə sərmayələr yatırır. Azərbaycana son 20 ildə 350 milyard dollar həcmində sərmayələrin cəlb olunması və onun yarısının birbaşa xarici kapital olması da məhz qeyd edilən mühüm faktorlarla əlaqədardır.

Hazırda neftlə bərabər zəngin qaz istehsalçısı olan Azərbaycan Avropa ölkələrinin təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. Eləcə də dayanıqlı artıma nail olmaq üçün neft-qaz sektorundan kənar sahələrdə, o cümlədən bərpaolunan enerjinin tədarükündə fəal addımlar atır. Eləcə də nəqliyyat və logistika sahəsində iqtisadi intensivliyi artırıb. Böyük potensiala malik sahələrdən biri də mədənçilikdir. Bir neçə gün əvvəl bu sahəyə dair yeni proqram təsdiq edilib və strateji xətlərdən biri əcnəbi iş adamlarnı bu sahəyə cəlb etmək motivasiyalardır.

Bütün bunlar yerli və xarici investisiyalar üçün də bu əla fürsət deməkdir.

Yeri gəlmişkən, tədbirdə qlobal investisiya cəmiyyətinin ən görkəmli simalarının, ələlxüsus da 30 trilyon dollar dəyərində aktivləri idarə edən nəhəng şirkətin rəhbərliyinin təmsil olunması ölkəmizdəki sərmayə iqliminə xüsusi marağın göstəricisi kimi qiymətləndirilə bilər. Həmçinin yuxarıda vurğulanan sahələrə böyükhəcmli kapital yatırımlarını təşviq edir. Azərbaycanın dövlət başçısının qeyd etdiyi kimi, ən yaxşı təəssürat insanın özünün gördüyü və hiss etdiyi təəssüratdır. Xarici şirkətlərin üzvləri ölkəmizdə hər şeyi aydın görürlər. Azərbaycanda çoxsaylı əcnəbi mütəxəssislər yaşayır və çalışırlar. Yeni gələnlər isə sərmayə mühitini yaxından görərək bizimlə əməkdaşlıq edə bilərlər.

Göründüyü kimi, İkinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu ölkəmizin investisiya imkanlarının beynəlxalq biznes ictimaiyyətinə təqdim edilməsi, dövlət-özəl tərəfdaşlığının inkişafı, xarici investorlar və beynəlxalq maliyyə institutları ilə əməkdaşlığın genişləndirilməsi, habelə yeni investisiya layihələrinin təşviqi baxımından mühüm platformadır. Beynəlxalq tədbir çərçivəsində sənaye, maliyyə, tikinti, süni intellekt, bərpaolunan enerji, aqrar, su resursları, idman sahələrini əhatə edən mühüm sənədlərin imzalanması gözlənilir.

Qlobal iqtisadiyyatda baş verən dəyişikliklər, təchizat zəncirlərinin yenidən formalaşması, yeni nəqliyyat və enerji marşrutlarının yaranması, texnologiya və süni intellektin iqtisadi proseslərə təsirinin artması investisiya gündəliyinə də yeni yanaşmalar gətirir. Bu şəraitdə Azərbaycanın Avropa ilə Asiyanı birləşdirən strateji mövqeyi onun regional və qlobal bağlantılarda rolunu daha da artırır.

Forumda çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib ki, Azərbaycan 30 ildən çoxdur ki, bir çox dövlətlə sıx işbirliyi quraraq təkcə ölkəmizin sosial-iqtisadi inkişafına töhfə verməyib, eyni zamanda regionda və regiondan kənarda bir sıra ölkələr üçün etibarlı iqtisadi tərəfdaşa, enerji təchizatçısına çevrilib.

Ölkəmiz hazırda 16 ölkəyə qaz tədarük edir ki, onlardan 10-u Avropa İttifaqının üzvüdür. Bu, Azərbaycanı coğrafi əhatəsinə görə dünyanın aparıcı boru kəməri qazı tədarükçülərindən birinə çevirir. Azərbaycanın neft və neft məhsulları tədarük etdiyi ölkələrin sayı isə daha çoxdur. Respublikamız, digər sahələrdə də xarici tərəfdaşları ilə əlaqələri dərinləşdirir, yeni investisiyalar və təkrar investisiyalar yaratmağa davam edir. Nəqliyyat dəhlizlərindən iqtisadi dəhlizlərə keçid isə yeni tərəfdaşlıq blokları təsis edir. 2025-ci ilin noyabrında Azərbaycan Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşü formatının tamhüquqlu iştirakçısı oldu və praktiki baxımdan Azərbaycan və Mərkəzi Asiya ölkələri tranzit, logistika, energetika və investisiya sahələrinə yanaşmalarını getdikcə daha çox əlaqələndirir. Azərbaycanda yerləşən bir şirkət üçün bu, bir tərəfdən Mərkəzi Asiya bazarlarına, digər tərəfdən isə Türkiyə və Avropaya birləşdirilmiş istehsal bazası deməkdir.




### Azərbaycan regionda və regiondan kənarda etibarlı tərəfdaşa çevrilib

M.Cabbarov qeyd edib ki, Azərbaycanda aparıcı qlobal şirkətlərlə birlikdə irihəcmli "yaşıl enerji" layihələrinin icrası da genişlənir. Azərbaycan, Qazaxıstan və Özbəkistan liderləri tərəfindən imzalanmış saziş Mərkəzi Asiyadan Xəzər bölgəsinə "yaşıl enerji" dəhlizinin təməlini qoyub. "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" isə Avropa bazarlarına bərpaolunan elektrik enerjisi daşımaq üçün nəzərdə tutulub. Bu, investorlar üçün generasiya, ötürülmə və enerji tutumlu sənaye sahələrində imkanlar yaradır.

Nazir qeyd edib ki, bölgədə Azərbaycanın təşəbbüsü ilə yeni Data infrastrukturu qurulur, ölkəmiz rəqəmsal qovşağa çevrilməkdir. Xəzər dənizinin dibi ilə çəkilən Azərbaycan və Qazaxıstan arasındakı Trans-Xəzər fiber-optik kabel xətti Avropa və Asiya arasında yeni yüksəkötürücülü rəqəmsal bağlantı yaradacaq. Bu bağlantılar məlumat mərkəzləri və süni intellekt infrastrukturuna investisiya cəlb etməyə kömək edən çox rəqabətli imkanlar təmin edəcək.

Azərbaycan bir sıra tərəfdaş ölkələrlə birgə investisiya fondları təsis edib və çoxtərəfli investisiya platformalarında iştirak edir.

### 23 saziş üzrə 10,8 milyard dollar həcmində investisiya

İkinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu böyükhəcmli kapital yatırımları üçün mühüm razılaşmaların əldə edilməsi baxımından da əlamətdar oldu. Forum çərçivəsində beynəlxalq investorlar və tərəfdaş şirkətlərlə ümumi dəyəri 10,8 milyard dollar olan investisiya layihələrini əhatə edən 23 sənəd imzalandı. Onların sırasında süni intellekt, enerji, o cümlədən bərpaolunan enerji, tikinti, rəqəmsal iqtisadiyyat, sənaye, kənd təsərrüfatı, əczaçılıq, maliyyə, su təsərrüfatı və digər istiqamətləri əhatə edən anlaşmalar xüsusi əhəmiyyət daşıyır. Yeri gəlmişkən, cari ilin iyun ayında keçirilmiş Bakı Enerji Həftəsi çərçivəsində elan edilmiş layihələr üzrə təxminən 6 milyard dəyərində də kapital anlaşmaları əldə edilib. Həmin sərmayələr də nəzərə alınmaqla, planlaşdırılan birgə layihələrin ümumi dəyəri 16,7 milyard dolları ötəcək. Bu, investorların Azərbaycana artan inamının və ölkəmizin investisiya məkanı kimi cəlbediciliyinin yüksəldiyinin aydın göstəricisidir. Bu miqyasda investisiyalar iqtisadiyyatın şaxələndirilməsinə, yeni texnologiyaların və innovasiyaların tətbiqinə, əlavə dəyərin və məşğulluğun artırılmasına mühüm töhfələr verəcək.

### Yeni sərmayələrin cəlbi üçün əlverişli fürsət

Ölkəmizdə qanunun aliliyinin təminatı, siyasi sabitlik və sərmayələrin qorunması iqtisadi siyasətimiz üçün fundamental amil rolunu oynayır və investorlar üçün uzunmüddətli etimad mühiti yaradır. İnvestorların hüquq və mənafelərinin qorunması, yerli və xarici sahibkarlara əlverişli münbit şəraitinin yaradılması, Rəqabət Məcəlləsinin qüvvəyə minməsi sərmayə cəlbediciliyinin artırılmasında yeni mərhələ açıb. Yaradılmış infrastruktur və hüquqi təminatlar əsasında Azərbaycan biznes layihələrini dəstəkləməyə, texnologiya, investisiya və təcrübə gətirən tərəfdaşlıqları irəli aparmağa tam hazırdır. Bunu tədbirdə çıxış edən investorlar da səsləndirib. Türkiyənin "JİTPOL" şirkətinin təmsilçisi Saadettin Kahveci bildirib ki, İkinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu biznesin inkişafına, iş adamlarının qarşılıqlı əlaqələr qurub əməkdaşlıq etməsinə, istehsal və emal müəssisələrinin tanıdılmasına yaxından köməklik göstərir. Bu təşəbbüs ümumilikdə ölkənin iqtisadi inkişafına, sahibkarlıq potensialının artmasına xidmət edir. Azərbaycanda aparılan iqtisadi islahatlar biznes mühitinə təsir göstərir və imkanları artırır. Bunu nəzərə alan şirkət cəlbedici sərmayə sisteminin səmərəliliyindən istifadə etməklə Bakıda nümayəndəliyini açmaq niyyətindədir,

Digər çıxış edən biznes nümayəndələri vurğulayıblar ki, hazırkı şəraitdə biznes üçün əsas məsələlərdən biri qlobal proseslərin son nəticələrinin və bazarlara mümkün təsirlərinin düzgün qiymətləndirilməsidir. Həmçinin beynəlxalq səviyyədə qəbul edilən qərarların müxtəlif ölkələr və regionlar üçün yaratdığı mümkün iqtisadi nəticələrinin nəzərə alınması vacibdir. Bu baxımdan Bakı İnvestisiya Forumu dövlət rəsmiləri, biznes strukturlarının rəhbərləri və digər investisiya strukturları üçün dərin təhlillər aparmaq və bizneslər qurmaq üçün ümidverici perspektivlər vəd edir.

### SOCAR-ın nəhəng enerji şirkətləri ilə yeni sazişləri

İnvestisiya Forumunda imzalanan sənədlərin sırasında SOCAR-ın yeni tərəfdaşlıq memorandumları xüsusilə əhəmiyyət daşıyır. ABŞ-ın nəhəng enerji korporasiyası olan "ExxonMobil" şirkəti ilə Azərbaycanın milli enerji institutu arasında imzalanmış "Azərbaycan Respublikasının Orta Kür hövzəsi üzrə qeyri-ənənəvi karbohidrogen resurslarının kəşfiyyatı, işlənməsi və hasilatı üzrə Hasilatın Pay Bölgüsü Sazişi"nə əsasən, müqavilə sahəsində iştirak payları müvafiq törəmə şirkətlər vasitəsilə 50 faiz SOCAR, 50 faiz "ExxonMobil" olmaqla bölüşdürüləcək. Layihənin operatoru "ExxonMobil" şirkəti olacaq. Həmçinin SOCAR-la XRG və "TotalEnergies" şirkətləri arasında "Abşeron" qaz-kondensat yatağının tammiqyaslı işlənməsi üzrə Yekun İnvestisiya Qərarının mübadiləsi perspektivli qaz yatağının tammiqyaslı işlənməsini təmin etməklə əlavə quyuların qazılması, eləcə də yeni emal infrastrukturunun yaradılmasını başa çatdıracaq. Bu isə ölkəmizin Avropaya qaz tədarüklərinin həcminin yüksəlməsinə imkan verəcək.

SOCAR ilə "Comstock Resources" şirkəti arasında strateji tərəfdaşlığa dair Çərçivə Sazişi isə hasil edilən təbii qazın mayeləşdirilərək (LNG) SOCAR tərəfindən ABŞ-dan kənar beynəlxalq bazarlarda satış imkanlarına yol açacaq. Nəticədə, Azərbaycan maye qaz bazarında da yeni status qazanmış olacaq.

"Apollo" şirkəti ilə SOCAR arasında "upstream" işlənmə (mənbəyə doğru) və hasilat layihələrinə investisiya üzrə strateji tərəfdaşlıq haqqında Anlaşma Memorandumu mümkün investisiyanın qiymətləndirilməsi və strukturlaşdırılması, bu məqsədlə birgə işçi qrupların yaradılması, hüquqi, maliyyə və texniki yoxlamanın aparılması və yekun sazişlərin hazırlanması məsələlərini nəzərdə tutur. SOCAR ilə "Securing Energy for Europe GmbH" (SEFE) şirkəti arasında təbii qaz, LNG, enerji təhlükəsizliyi, enerji infrastrukturunun inkişafı və hasilat layihələri üzrə əməkdaşlıq haqqında imzalanmış Anlaşma Memorandumu tərəflər arasında təbii qaz və LNG təchizatı, enerji infrastrukturu layihələrinin birgə inkişafı, hasilat layihələrinə investisiyalar, habelə enerji təhlükəsizliyinin gücləndirilməsi sahələrində əməkdaşlığın genişləndirilməsini əhatə edir.

SOCAR ilə VNG, "Oracle Alloy" "Eni S.p.A." şirkətləri arasında sazişlər isə yerli neft-qaz infrastrukturlarında müasir emal işlərinin qurulmasını, habelə Azərbaycandan xaricdə (Kot-d'İvuar Respublikasında) yerləşən enerji yataqlarının işlənməsini nəzərdə tutur. Bütün bu sazişlər Azərbaycan Dövlət Neft Şirkətinin qlobal fəaliyyətini genişləndirməyə yönəlmiş uzunmüddətli strategiyasına töhfə verəcək.

### Təşkilat Komitəsi - İnvestisiya siyasətinin beynəlxalq təqdimatı

II Azərbaycan Beynəlxalq İnvestisiya Forumu nümunəvi format kimi artıq ənənəyə çevrilir və biznes ailəsinin Bakı platforması kimi iqtisadi gündəliyə yazılmaqdadır. Prezident İlham Əliyevin imzaladığı müvafiq sərəncamla forumun Təşkilat Komitəsi yaradılıb ki, bu, Bakının qlobal sərmayədarların etibarlı ünvanına çevrildiyini təsdiqləyir. Komitənin tərkibinə xarici işlər, maliyyə, mədəniyyət, daxili işlər, fövqəladə hallar, səhiyyə, ekologiya və təbii sərvətlər, rəqəmsal inkişaf və nəqliyyat, energetika nazirləri, eləcə də bir sıra dövlət qurumlarının rəhbərləri daxil edilib. Bu, Azərbaycanın iqtisadi və investisiya potensialının beynəlxalq səviyyədə təşviqi, əlverişli biznes və investisiya mühitinin daha da təkmilləşdirilməsi, xarici investisiyaların cəlb edilməsi, qeyri-neft sektorunun dayanıqlı inkişafının təmin olunması və ölkənin qlobal iqtisadi sistemə inteqrasiyasının gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Beləliklə, İkinci İnvestisiya Forumu Azərbaycanın uzunmüddətli investisiya strategiyasının mühüm platformasına çevrilən genişmiqyaslı, strateji proqram olduğunu təsdiqləməklə, yeni layihələrin təqdimatını həyata keçirmək, regional əməkdaşlığı genişləndirmək və Azərbaycanın Şərq ilə Qərb arasında iqtisadi körpü rolunu praktik layihələr vasitəsilə nümayiş etdirmək baxımından mühüm əhəmiyyət daşıyır. Azərbaycanın investisiya siyasətinin beynəlxalq səviyyədə təqdimatına xidmət edir.

*E.CƏFƏRLİ*

# İkinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu dünya mediasının diqqətində










Bakıda keçirilən İkinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu, forumda səslənən fikirlər, imzalanan müqavilələr, investisiya sənədləri və Prezident İlham Əliyevin bu mötəbər tədbirdə iştirakı və keçirdiyi görüşlər dünya mediasının diqqətində olub. Türkiyənin, Rusiyanın, Avropa, Mərkəzi Asiya və digər ölkələrin media orqanları bu barədə geniş materiallar dərc edib.

Belə ki, Türkiyənin "SonDurak" media resursunda yazılıb ki, Prezident İlham Əliyevin himayəsi ilə keçirilən İkinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu çərçivəsində 10,8 milyard dollar həcmində 23 investisiya sənədi imzalanıb. Azərbaycanın Orta Dəhliz kimi layihələrdə iştirakı onun iqtisadi potensialını artırır və sərmayəçilər Azərbaycana sərmayə yatırmaq niyyətlərini bildiriblər.

"Haberler.com" saytında qeyd edilib ki, Azərbaycan Avropa ilə Asiya arasında böyük tranzit potensialına malikdir. Yaradılan nəqliyyat infrastrukturu perspektivdə iqtisadi inkişaf üçün geniş imkanlar yaradıb. Cənubi Qafqazın iqtisadi baxımdan inkişaf etmiş ölkəsi olan Azərbaycanda iqtisadi islahatlar səmərəli həyata keçirilib.

"İşçı Haber" saytında yazılıb ki, Bakıda keçirilən İkinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumunda 10,8 milyard dollarlıq investisiya sənədinin imzalanması onun mötəbərliyi ilə yanaşı, Azərbaycanın iqtisadi potensialının da yüksək olduğunu göstərir. Müxtəlif sahələri əhatə edən investisiya sənədləri perspektivdə ölkə iqtisadiyyatının inkişafına böyük təkan verəcək. Forumda iştirak edən dünya miqyaslı şirkətlər də öz aralarında əməkdaşlıq haqqında razılıqlar əldə ediblər. Azərbaycan keçirdiyi bu forum vasitəsilə beynəlxalq şirkətlər üçün əməkdaşlıq imkanı yaradıb.

"Star" qəzetinin elektron variantında yayımlanan məqalədə bildirilib ki, İkinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumunun işinə qatılan Azərbaycan Prezidenti İlham Əliyev uzunmüddətli və davamlı artıma nail olmaq üçün neft və təbii qazdan başqa sektorların potensialının qiymətləndirilməli olduğunu bildirib və əlavə edib ki, bərpaolunan enerji, logistika, nəqliyyat, elektrik enerjisi ixracı və mədənçilik gələcəkdə ölkə iqtisadiyyatının mühüm hərəkətverici qüvvələri olacaq. Azərbaycan etibarlı ölkə olduğu üçün buraya sərmayə yatırmaq istəyən şirkətlərin sayı artır. Təsadüfi deyil ki, son 20 ildə Azərbaycana təxminən 350 milyard dollar sərmayə yatırılıb.

"Yeni Dönəm" saytı forumda Prezident İlham Əliyevin səsləndirdiyi fikirlərə geniş yer verib. Qeyd olunub ki, Prezident İlham Əliyev Bakıda keçirilən İkinci Beynəlxalq İnvestisiya Forumunda çıxış edərək deyib: "Azərbaycandan keçən tranzit yük daşımalarında sürətli artım var və bu il 16 milyon tona çatacaq. Lakin məqsədimiz 2030-cu ilə qədər həm şərq-qərb, həm də şimal-cənub marşrutları üzrə 25 milyon tona, bəlkə də daha çoxa çatmaqdır. Buna nail olmaq üçün qonşularımızla fəal şəkildə çalışırıq". Saytda diqqətə çatdırılıb ki, Azərbaycan Prezidentinin regionda apardığı sülh siyasəti bu planların reallaşmasına imkan verir.

"Akşam" qəzetinin elektron platformasında dərc olunan materialda vurğulanıb ki, Prezident İlham Əliyev ölkədə alternativ və bərpaolunan enerji mənbələrindən olduqca səmərəli istifadə edir. Xəzər dənizinin Azərbaycan sektorunda 157 giqavat alternativ enerji istehsal etmək potensialı var. Bu istiqamətdə Azərbaycanda böyük işlər görülür və istismara verilən stansiyalar da fəaliyyətini davam etdirir.

"Bloomberg"də isə nəzərə çatdırılıb ki, İkinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu çərçivəsində SOCAR, Fransanın "TotalEnergies" və mərkəzi Əbu-Dabidə yerləşən "XRG" şirkətləri arasında aparılan danışıqların nəticəsi olaraq Abşeron qaz və kondensat sahəsinə sərmayə qoymaq haqqında razılıq əldə edilib. Materialda diqqətə çatdırılıb ki, "Abşeron" yatağından yaxın 3 ildə əlavə 5 milyard kubmetr təbii qaz hasil ediləcək.

Qırğızıstanın Milli İnvestisiya Agentliyinin saytında dərc olunan materialda bildirilib ki, İkinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumunda türk dövlətlərinin qarşılıqlı sərmayə yatırımı məsələsi müzakirə olunub və qərara alınıb ki, türk dövlətlərinin investisiya agentlikləri arasında əlaqələr artırılsın və birgə layihələr təqdim edilərək həyata keçirilsin. Bunlarla yanaşı, dünya maliyyə bazarında fəal rol oynamaq da qərara alınıb.

Rusiyanın TASS İnformasiya Agentliyində Azərbaycanın energetika naziri Pərviz Şahbazovun "Regional enerji əlaqələri və yaşıl keçid: Çağırışlar və imkanlar" mövzusunda keçirilən sessiyadakı çıxışına istinadla yazılır ki, Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi layihəsi üzrə yekun investisiya qərarı 2029-cu ilə planlaşdırılır. Ümumi ötürmə gücü 4 QVt olan layihənin texniki-iqtisadi əsaslandırılması onun mümkünlüyünü təsdiqləyib. Dəhliz 2032-ci ildə tədricən istifadəyə veriləcək və onun tam gücü ilə 2040-cı ilə qədər istifadəyə verilməsi planlaşdırılır.

"Finacial One" portalında vurğulanıb ki, forumda imzalanmış sənədlər süni intellekt, enerji, o cümlədən bərpaolunan enerji, tikinti, rəqəmsal iqtisadiyyat, sənaye, kənd təsərrüfatı, əczaçılıq, maliyyə və su idarəçiliyi sahələrində layihələrin həyata keçirilməsini nəzərdə tutur. Müxtəlif ölkələrin dövlət qurumlarının, beynəlxalq maliyyə institutlarının, qlobal investorların, beyin mərkəzlərinin və işgüzar dairələrin nümayəndələrinin qatıldığı forumda Azərbaycan və region üçün investisiya perspektivləri, Orta Dəhlizin inkişafı, sənaye və azad iqtisadi zonalar, süni intellekt və rəqəmsal transformasiya, enerji və yaşıl keçid, kapital bazarları, aqrobiznes, vacib xammal və iqtisadi təhlükəsizlik məsələləri müzakirə olunub. Dünya üçün aktual xarakter daşıyan bu məsələləri Azərbaycan diqqətdə saxlayaraq müasir trendlərdən geridə qalmır.

"Ritm Evrazii" analitik portalında dərc edilən materiallarda diqqətə çatdırılıb ki, Bakıda keçirilən İkinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumunda "The European House - Ambrosett"in baş direktoru və idarəedici tərəfdaşı Valerio De Molli "Azərbaycan və Cənubi Qafqaz: İnvestisiyaların artımı üçün mərkəz" mövzusunda təqdimatla çıxış edib. Təqdimatda Azərbaycanın və Cənubi Qafqazın investisiyaların artımı üçün potensialı, regional əlaqələri və bölgənin qlobal iqtisadi sistemdəki inkişaf edən rolu vurğulanıb. Azərbaycanın iqtisadi potensialı haqqında ətraflı məlumat verilib.

Bolqarıstanın "Standart" saytında yazılıb ki, Azərbaycan Prezidenti İlham Əliyev ölkəsinin bütün xarici borcunu 24 saat ərzində ödəyə biləcəyi barədə şok açıqlama verərək, Köhnə Qitədəki dərin maliyyə böhranını üzə çıxarıb. Prezident İlham Əliyev ölkənin xarici borcunu təxminən 20 dəfə üstələyən valyuta ehtiyatları topladığını vurğulayıb. Eyni zamanda, Avropa İttifaqı artıq orta hesabla ÜDM-in 83,4 faizini aşan rekord borcla sıxışdırılır və istehsalda xroniki böhran var. Saytda Azərbaycanın böyük iqtisadi potensiala malik olduğu bildirilib. Qeyd edilib ki, neft və qaz hələ də ixracın əsas payını təşkil etsə də, qeyri-neft sektoru hazırda ölkənin ÜDM-nin 70 faizindən çoxunu təşkil edir.

Digər bir sayt - "Net news"da Prezident İlham Əliyevin forumda səsləndirdiyi Azərbaycanın xarici borcu və valyuta ehtiyatları barədə fikirlərinin Bolqarıstan üçün nümunə olduğu diqqətə çatdırılıb: "Bolqarıstan üçün bu nümunə, xüsusilə aktualdır. Ölkəmiz Avropa İttifaqında ən aşağı borc səviyyələrindən biri ilə - ÜDM-in təxminən 29,9 faizi ilə öyünsə də, bu borcun artma tempi həyəcanvericidir. Problem ondadır ki, bu vəsaitlər çox vaxt əlavə dəyər yaradan uzunmüddətli investisiyalar əvəzinə cari xərclərə və sosial ödənişlərə yönəldilir. Lakin Azərbaycan əlavə dəyər yaradan bilən iqtisadi sistemə malikdir".

Yunanıstanın "Money Review" saytında vurğulanıb ki, İkinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu çərçivəsində SOCAR və "ExxonMobil" Orta Kür hövzəsindəki qeyri-ənənəvi karbohidrogen yataqlarının kəşfiyyatı, işlənməsi və istismarı üçün hasilatın pay bölgüsü müqaviləsini imzalayıblar. İki şirkətin hər biri 50 faiz paya sahib olacaq və "ExxonMobil" operator rolunu öz üzərinə götürəcək. Bu müqavilələr təchizat təhlükəsizliyinin Avropa gündəmində yüksək səviyyədə qaldığı bir vaxtda, Azərbaycanın təbii qaz istehsalçısı kimi mövqeyini gücləndirir. "Abşeron" yatağının genişləndirilməsi ölkənin təbii qaz hasilatını növbəti üç-dörd il ərzində təxminən 5 milyard kubmetr artıracaq. "TotalEnergies"in məlumatına görə, tam işlənmənin birinci mərhələyə əlavə olaraq, sabit hasilatla ildə təxminən 4,5 milyard kubmetr qaz hasil edəcəyi gözlənilir.

"Energia" saytında qeyd olunub ki, Azərbaycan təbii qazı əsasən Avropaya və Türkiyəyə ixrac edir. Ötən il Azərbaycanın Avropa İttifaqı ölkələrinə ixrac etdiyi qazın həcmi 25 milyard kubmetr təşkil edib. Bu qlobal enerji təchizatındakı fasilələrin təchizat təhlükəsizliyi ilə bağlı narahatlıqları artırdığı bir vaxta təsadüf edir. Azərbaycanın Avropaya ixracının daha da artması üçün əlavə boru kəməri tutumu tələb olunacaq. Materialda nəzərə çatdırılıb ki, tranzit olaraq Azərbaycan Avropa ilə Asiya arasındakı ticarət əlaqələrinin inkişafında əsas rol oynayır.

***N.BAYRAMLI***

# 37 ikitərəfli görüş, imzalanan 17 sənəd...

**Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində Azərbaycan böyük inkişaf yolu keçib, ölkəmizin qarşısında yeni perspektivlər açılıb. Bu inkişaf bütün sahələri əhatə etməklə yanaşı, ölkəmizin iqtisadi, siyasi və hərbi qüdrətinin, bütövlükdə isə milli gücünün artmasını təmin edib. Ərazi bütövlüyünü və suverenliyi bərpa edən Azərbaycan regionda yeni reallıqlar yaradıb. Bu və digər amillər ölkəmizin  beynəlxalq mövqeyini əhəmiyyətli dərəcədə gücləndirib.**

## Azərbaycanın dünya üçün önəmi artır

Hazırda regional güc mərkəzi olan Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır və dünyada böyük etimad qazanıb. Ölkəmiz xarici siyasətində milli maraqlar və beynəlxalq hüquq normaları ilə yanaşı, sülh, sabitlik, inkişaf, qarşılıqlı faydalı əməkdaşlıq kimi meyarları da əsas götürür, beynəlxalq münasibətlər sisteminə yeni və daha mütərəqqi dəyərlər təqdim edir. Bu isə həm də regional və qlobal inkişafa, sabitliyə, təhlükəsizliyə töhfə kimi xarakterizə edilir. Digər tərəfdən, xarici siyasət sayəsində ölkəmiz həm ikitərəfli münasibətlərini, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini uğurla davam etdirir. Eyni zamanda, ölkəmiz regionda, eləcə də beynəlxalq səviyyədə əməkdaşlıq və təhlükəsizliyə mühüm töhfələr verir.

Azərbaycanın təşəbbüsü və liderliyi ilə gerçəkləşdirilən geostrateji layihələrin əhəmiyyəti və nəticələri deyilənləri təsdiq edir. Azərbaycan nəinki yerləşdiyi regionda, həm də bütövlükdə Avrasiya geosiyasi məkanında işbirliyinə, təhlükəsizliyə xidmət edən strateji əhəmiyyətli layihələrin reallaşdırılmasında aparıcı rola malikdir. Təsadüfi deyil ki, Azərbaycan Avrasiyada mühüm nəqliyyat mərkəzinə çevrilib. Bunun qanunauyğun nəticəsidir ki, dünya siyasətinin aparıcı aktorları, həmçinin mötəbər regional və beynəlxalq təşkilatlar Azərbaycanın mütərəqqi siyasətini regional təhlükəsizlik və qlobal inkişaf kontekstində olduqca yüksək qiymətləndirirlər.

Bu baxımdan, xarici işlər naziri Ceyhun Bayramovun Nyu-Yorkda Azərbaycan adından keçirdiyi görüşlər və müzakirələr, imzaladığı sənədlər xüsusi vurğulanmalıdır. Güclü diplomatik gündəm Azərbaycanın xarici siyasət prioritetlərini irəli aparmaq, ikitərəfli tərəfdaşlığı gücləndirmək üçün mühüm fürsət yaradıb. Müzakirələr Azərbaycanın çoxtərəfli gündəliyə aktiv töhfəsini bir daha təsdiqləyib. Azərbaycan sülhün, sabitliyin, əlaqənin və qarşılıqlı faydalı əməkdaşlığın təşviqində beynəlxalq tərəfdaşlarla fəal şəkildə əlaqə saxlamağa davam edəcək.

## Ceyhun Bayramovun Nyu-Yorka uğurlu səfəri...

Azərbaycanın xarici işlər Nyu-Yorkda həmkarları, beynəlxalq təşkilatların rəhbərləri və dövlət rəsmiləri ilə 37 ikitərəfli görüş keçirib, 17 ikitərəfli sənəd imzalayıb. BMT Baş Assambleyasının 81-ci sessiyasının Ümumi Debatı, G-77 və Çin, Qlobal İnkişaf Təşəbbüsü, İƏT, Türk Dövlətləri Təşkilatı, Dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələr, Cammu və Kəşmir üzrə İƏT Əlaqə Qrupu, Transxəzər və TRIPP Marşrutu Sessiyası, Amerika Birləşmiş Ştatlarının Ticarət Palatasının Dəyirmi Masası və Ümumdünya Ticarət Təşkilatının Dünya İqtisadi Liderlərinin Naharı daxil olmaqla, 11 yüksəksəviyyəli tədbirdə çıxış edib. Keçirilən görüş və tədbirlər ölkənin beynəlxalq tərəfdaşlarla əməkdaşlığının genişləndirilməsi və çoxtərəfli diplomatik gündəliyin inkişaf etdirilməsi baxımından mühüm platforma olub.




Ceyhun Bayramov BMT Baş Assambleyasının 81-ci sessiyasındakı çıxışında isə beynəlxalq hüquqa, dövlətlərin suveren bərabərliyinə və daxili işlərə qarışmamaq prinsipinə ciddi riayətə əsaslanan çoxtərəfli sistemin yenilənməsinin və gücləndirilməsinin vacibliyini vurğulayıb. O, BMT Təhlükəsizlik Şurasında islahatların aparılmasının, inkişaf etməkdə olan ölkələrin daha ədalətli təmsilçiliyinin təmin edilməsinin zəruriliyini qeyd edib. Azərbaycan-Ermənistan münasibətlərinə toxunan nazir Vaşinqton Sülh Sammitindən sonra iki ölkə arasında de-fakto sülhün əldə olunduğunu bildirib. O, sülh gündəliyinin iqtisadi dividendlər yaratdığını, o cümlədən Azərbaycanın tranzit məhdudiyyətlərini birtərəfli qaydada aradan qaldırdığını və müəyyən sahələrdə ikitərəfli ticarətin başladığını qeyd edib, bununla belə sülh sazişinin imzalanması qarşısında qalan maneələrin aradan qaldırılmasının vacibliyini diqqətə çatdırıb.

Postmünaqişə dövründə həyata keçirilən bərpa və yenidənqurma işlərindən danışan C.Bayramov bildirib ki, 90 mindən çox vətəndaş Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə geri qayıdıb. Çıxışda mina təhlükəsinə də xüsusi diqqət ayrılıb. Qeyd olunub ki, 2020-ci ildən etibarən minalar nəticəsində 400-dən çox insan həlak olub və ya xəsarət alıb, son 30 ildə isə bu rəqəm 3 500-ə çatıb. Azərbaycan humanitar minatəmizləməni 18-ci Milli Dayanıqlı İnkişaf Məqsədi kimi qəbul edib. Nazir, həmçinin itkin düşmüş 4 minə yaxın şəxsin taleyinin müəyyənləşdirilməsi üçün beynəlxalq dəstəyə çağırış edib. Onun sözlərinə görə, bu məsələnin həlli postmünaqişə barışığı və hesabatlılığın təmin olunması baxımından mühüm əhəmiyyət daşıyır.

## Azərbaycan 140-dan çox ölkəyə yardım edib

Azərbaycanın regional nəqliyyat və logistika imkanlarına toxunan nazir Orta Dəhliz üzrə yükdaşımaların Bakı Limanı və Bakı-Tbilisi-Qars dəmir yolu vasitəsilə 90 faiz artdığını bildirib. C.Bayramov Azərbaycan ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz multimodal bağlantının yaradılması baxımından TRIPP təşəbbüsünün irəlilədilməsinin vacibliyini də qeyd edib. O, Trans-Xəzər Rəqəmsal İpək Yolu fiber-optik şəbəkəsi vasitəsilə Azərbaycanın regional rəqəmsal bağlantının genişləndirilməsi istiqamətində həyata keçirdiyi işlərdən də danışıb.

İqtisadi inkişafla bağlı göstəriciləri diqqətə çatdıran nazir Azərbaycanın ÜDM-nin üç dəfə artdığını, yoxsulluq səviyyəsinin isə 49 faizdən 5 faizə endiyini bildirib. Azərbaycanın enerji siyasətinə gəlincə, C.Bayramov ölkəmizin 16 ölkəyə etibarlı təbii qaz təchizatçısı olduğunu vurğulayıb. O, həmçinin 2030-cu ilədək 6 QVt gücündə Günəş və külək enerjisi layihələrinin reallaşdırılması və elektrik enerjisi istehsalında bərpaolunan mənbələrin payının 40 faizə çatdırılmasının planlaşdırıldığını bildirib.

C.Bayramov Azərbaycanın COP29 çərçivəsində iqlim gündəliyinə töhfələrini də qeyd edərək deyib ki, tədbir zamanı qlobal iqlim maliyyəsi hədəflərinin üç dəfə artırılması, Paris Sazişinin 6-cı maddəsi üzrə karbon bazarlarının fəaliyyətə başlaması və İtkilər və Zərərlər Fondunun irəlilədilməsi ilə bağlı mühüm addımlar atılıb. Həmçinin UNFCCC İqlim Həftəsinin keçirilməsi vurğulanıb. Azərbaycanın qlobal şəhərsalma gündəliyinə töhfəsi çərçivəsində Ümumdünya Şəhər Forumunun 13-cü Sessiyasına ev sahibliyi etməsi də çıxışda diqqətə çatdırılıb. Nazir Xəzər dənizində su səviyyəsinin azalmasını ciddi ekoloji problem kimi qiymətləndirərək, sahilyanı ölkələrin bu istiqamətdə kollektiv və davamlı tədbirlər görməsinə çağırış edib.

Çıxışda Azərbaycanın ASAN və DOST modelləri vasitəsilə institusional innovasiyalar sahəsində təcrübəsinin digər ölkələrlə paylaşılması da qeyd olunub. Bildirilib ki, bu təcrübə 100-dən çox dövlətin həmmüəllifliyi ilə BMT İnsan Hüquqları Şurasının qətnaməsinin qəbuluna ilham verib.

C.Bayramov Azərbaycanın 2020-ci ildən etibarən 140-dan çox ölkəyə 400 milyon dollardan artıq humanitar, iqtisadi və texniki yardım göstərdiyini bildirib. Yardımlarda xüsusilə Kiçik Ada Dövlətlərinə və Afrikadakı tərəfdaş ölkələrə üstünlük verildiyi qeyd olunub.

***Nardar BAYRAMLI***



# Qarşılıqlı etimad xüsusi məsuliyyət tələb edir!

## Türkiyə dövləti və cəmiyyəti Azərbaycana qarşı saxta kampaniyalar aparanlara qarşı əməli addımlar atmalıdır

Azərbaycanın yerləşdiyi coğrafi məkan onu yalnız Cənubi Qafqazın deyil, daha geniş Avrasiya məkanının təhlükəsizlik və kommunikasiya sistemində mühüm aktora çevirir. Ölkəmizin Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşməsi, enerji layihələrində iştirakı, regional əməkdaşlıq təşəbbüsləri və qonşu dövlətlərlə qurduğu münasibətlər bu əhəmiyyəti daha da artırır. Bu mənzərədə Azərbaycan-Türkiyə münasibətləri xüsusi yer tutur. İki ölkə arasında formalaşmış müttəfiqlik əlaqələri siyasi, iqtisadi, hərbi, enerji və nəqliyyat sahələrində əməkdaşlığın daha yüksək mərhələyə yüksəlməsinə imkan verib.

Azərbaycan və Türkiyənin münasibətləri yalnız dövlətlərarası əlaqələrin klassik çərçivələri ilə məhdudlaşmır - qarşılıqlı etimada, tarixi və mənəvi yaxınlığa əsaslanan bu münasibətlər regional sabitlik və təhlükəsizlik baxımından da mühüm faktor kimi çıxış edir. İki dövlətin birgə fəaliyyəti regionda əməkdaşlığa əsaslanan yeni ab-havanın formalaşmasına, qarşılıqlı maraqların uzlaşdırılmasına və təhlükəsizlik çağırışlarına daha çevik yanaşmaların meydana gəlməsinə şərait yaradır. Məhz buna görə Azərbaycan-Türkiyə müttəfiqliyi yalnız ikitərəfli münasibətlərin deyil, bütövlükdə regionun gələcək təhlükəsizlik arxitekturasının mühüm elementlərindən biri kimi qiymətləndirilir. Bu mənada, Azərbaycanın iqtisadi-siyasi dəstəyi daha böyük mənada dəyərləndirilməlidir - belə ki, Azərbaycanın formalaşdırdığı yeni enerji layihələri, yeni yol xəritələri bu iki qardaş dövlətin Qərbdən Şərqə imkanlarını genişləndirir.

### Azərbaycan-Türkiyə: dövlətlərarası əlaqələrdən daha geniş məna daşıyan qardaşlıq

Qeyd edildiyi kimi, Azərbaycan və Türkiyə iki müstəqil, suveren və bərabərhüquqlu dövlət kimi öz münasibətlərini qarşılıqlı hörmət və etimad, qardaşlıq prinsipləri üzərində qurub. Bu əlaqələrin fərqləndirici xüsusiyyəti isə yalnız siyasi və diplomatik münasibətlərin yüksək səviyyəsi deyil, xalqlar arasında mövcud olan tarixi, mənəvi və mədəni bağlılığın dövlətlərarası əməkdaşlığa möhkəm dayaq yaratmasıdır. Azərbaycan və Türkiyə münasibətləri müxtəlif tarixi mərhələlərdə sınaqlardan keçib və hər iki ölkənin çətin məqamlarında qarşılıqlı dəstəyin nümayiş etdirilməsi bu bağlılığın real mahiyyətini ortaya qoyub.

Bu münasibətlərdə əsas məqamlardan biri də dövlətlərin bir-birinin müstəqilliyinə və milli maraqlarına hörmət etməsidir. Azərbaycan və Türkiyə arasında strateji tərəfdaşlıq illər ərzində müxtəlif sahələri əhatə edən çoxşaxəli əməkdaşlıq modelinə çevrilib. Cəmiyyətlərin bir-birinə münasibəti, qarşılıqlı etimad və həmrəylik də mühüm rol oynayır. Bu baxımdan Azərbaycan-Türkiyə qardaşlığı yalnız keçmişdən gələn mənəvi dəyər deyil, eyni zamanda müasir dövrün regional çağırışlarına cavab verən strateji əməkdaşlıq modelidir.

### Əsassız iddialara, saxta kampaniyalara qarşı məsuliyyətli yanaşma...

Azərbaycan-Türkiyə münasibətlərinin bu qədər geniş və çoxşaxəli xarakter daşıdığı bir şəraitdə ictimai informasiya məkanında yayılan məlumatların məsuliyyəti də xüsusi əhəmiyyət kəsb edir. Təəssüf doğuran məqamlardan biri odur ki, bəzən Türkiyənin media məkanında, xüsusilə sosial şəbəkələrdə iki ölkə arasındakı münasibətlərə dair əsassız, qərəzli və faktlara söykənməyən iddialara rast gəlinir. Ayrı-ayrı şəxslərin və ya sosial media hesablarının yaydığı belə məlumatlar hüquqi, diplomatik və etik çərçivələrə uyğun gəlməməklə yanaşı, ictimai rəydə yanlış təsəvvürlərin yaranmasına da səbəb ola bilər. Bu kimi məsuliyyətsiz paylaşımlar və ya informasiyaların ictimai münasibətlərə mümkün təsiri də nəzərdən qaçırılmamalıdır.

Azərbaycan və Türkiyə arasında qarşılıqlı etimad uzun illər ərzində formalaşıb və bu etimadın qorunması həm dövlət institutlarının, həm media subyektlərinin, həm də ictimaiyyət nümayəndələrinin məsuliyyətli davranışını tələb edir. Xüsusilə sosial medianın informasiya proseslərinə təsirinin artdığı bir dövrdə yoxlanılmamış məlumatların, manipulyativ fikirlərin və qarşı tərəfdə narazılıq yaratmağa hesablanan iddiaların yayılmasına ehtiyatla yanaşmaq vacibdir.

Azərbaycan və Türkiyə arasında mövcud strateji müttəfiqlik, tarixi bağlılıq və qarşılıqlı etimad bu münasibətlərin qorunmasına xüsusi məsuliyyət yaradır. Bu səbəbdən hər iki ölkənin ictimai informasiya məkanında qardaşlıq əlaqələrinə xələl gətirə biləcək əsassız yanaşmalara qarşı daha məsuliyyətli mövqe nümayiş etdirilməsi qarşılıqlı münasibətlərin sağlam inkişafına xidmət edə bilər.

### Kampaniyanın məqsədi Azərbaycan-Türkiyə dostluq, qardaşlıq və müttəfiqlik münasibətlərini hədəf almaqdır...

Qeyd edək ki, Azərbaycanın Milli Məclisinin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyası bu məsələ ilə bağlı bəyanat yayıb. Bəyanatda bildirilib ki, komissiya son günlər qardaş Türkiyə Respublikasının ərazisindən sosial media platformaları vasitəsilə ölkəmiz əleyhinə aparılan informasiya kampaniyasını öz səlahiyyətləri çərçivəsində araşdırıb. Monitorinqlər nəticəsində müəyyən edilib ki, bəlli mərkəzlər tərəfindən başladılan bu kampaniyanın məqsədi Azərbaycan-Türkiyə dostluq, qardaşlıq və müttəfiqlik münasibətlərini hədəf almaqla yanaşı, ictimai rəyi çaşdırmağa, vətəndaşlarımızda dövlətimizə və onun institutlarına qarşı inamsızlıq, habelə cəmiyyətdə qütbləşmə yaratmağa hesablanıb. Eləcə də kampaniya əlaqələndirilmiş formada, hədəfli reklamlar, real və saxta sosial media hesabları vasitəsilə aparılır: "Təəssüf hissi ilə qeyd etməliyik ki, "bir millət, iki dövlət" prinsipinə daim sadiq qalan Azərbaycan və Türkiyə cəmiyyətlərində bir sıra saf niyyətli insanlar da bu məkrli kampaniyaya dəstək verirlər. Eyni zamanda, Türkiyə Respublikasının qanunvericiliyinə əsasən bu cür fəaliyyətlərin hüquqi məsuliyyət yaratmasına baxmayaraq, kampaniya hələ də davam edir. O da qeyd olunmalıdır ki, əlaqələndirilmiş informasiya kampaniyasının iştirakçıları ilə bağlı Azərbaycan Respublikasının aidiyyəti dövlət qurumlarına məlumatlar təqdim ediləcək. Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiya bu cür həssas dönəmdə vətəndaşlarımızı və Türkiyədəki qardaşlarımızı diqqətli olmağa, saxta informasiyalara inanmamağa çağırır".

### Müttəfiqliyə xələl gətirmək istəyənlərə meydan verilməsi qəbuledilməzdir

Məsələ ilə bağlı Media və Yayım Şurası da bəyanat yayıb. Bəyanatda bildirilib ki, iki qardaş ölkənin münasibətlərinin yüksək səviyyəsi və qarşılıqlı etimad mühiti nəzərə alınmaqla, Azərbaycana qarşı qarayaxma kampaniyalarının müəyyən qısa fasilələrlə davamlı xarakter daşıması, qərəzli iddiaların, dezinformasiyaların çox rahatlıqla yayılması və buna qarşı heç bir tədbir görülməməsi təəssüf doğuran və yolverilməz hal kimi qiymətləndirilir: "Sözügedən paylaşımlar ayrı-ayrı şəxslərin təsadüfi təşəbbüsləri deyil, müəyyən əlaqələndirmə və vahid yanaşma əsasında həyata keçirilən, bəlli dairələr tərəfindən idarə olunan məqsədyönlü kampaniyanın tərkib hissəsidir. Bu kimi hallar hüquqi və etik çərçivələrə sığmamaqla yanaşı, Türkiyə Respublikasının qanunvericiliyinin tələblərinə də ziddir. Hesab edirik ki, digər müvafiq hallarda olduğu kimi, həssas yanaşma və qanunvericiliyin tələblərinin icrası Azərbaycana münasibətdə də özünü göstərməlidir.

Azərbaycan tərəfi Türkiyə mediasında və sosial media seqmentində baş verən prosesləri diqqətlə izləyir, qanunvericilikdə nəzərdə tutulmuş müvafiq tədbirlərin görülməsi, o cümlədən qarayaxma kampaniyasının təşkilatçıları və icraçılarının ölkəmizə girişinin məhdudlaşdırılması imkanının nəzərdən keçirilməsi istisna edilmir. İctimaiyyətimiz iki dövlət və xalq arasında formalaşmış tarixi, siyasi və mənəvi bağlılığa, qarşılıqlı etimada və strateji müttəfiqliyə xələl gətirmək istəyənlərə meydan verilməsini qəbuledilməz hal hesab edir və belə cəhdlərin qarşısının alınması istiqamətində əməli addımlar atılmasını gözləyir".

**P.İSMAYILOV**

## Fransua Olland prezident seçkilərində iştirak edəcək?



Fransanın sabiq prezidenti Fransua Olland 2027-ci il prezident seçkilərində iştirak edə biləcəyini bildirib.

O bu barədə İtaliyanın "Repubblica" qəzetinə müsahibəsində bildirib.

Ollandın sözlərinə görə, söhbət ölkəyə kimin rəhbərlik edə biləcəyindən, eləcə də fransızların gələcəyə olan inamını qaytara biləcəyindən gedir.

"Prezident seçkilərində iştirak etmək elə bir qərardır ki, ona sadə yanaşmaq olmaz, xüsusən də sabiq dövlət başçısı üçün. Özümü birinci turda sadəcə iştirak etmək xatirinə iştirak edən namizəd kimi təsəvvür etmirəm, əksinə, ikinci tura keçmək və seçkilərdə qalib gəlmək istəyirəm. Məhz belə bir imkandan çıxış edərək qərar qəbul edəcəyəm", - o qeyd edib.

## Yunanıstanda siyasi rəqabət güclənir



Yunanıstanda növbəti parlament seçkilərinə doğru siyasi mübarizə intensivləşir. Hakim Yeni Demokratiya Partiyası ilə müxalifət qüvvələri seçicilərin dəstəyini qazanmaq üçün iqtisadiyyat, sosial siyasət və dövlət idarəçiliyi məsələlərini ön plana çıxarırlar.

AZƏRTAC xəbər verir ki, "Kathimerini" nəşri ölkənin seçkilərə doğru irəlilədiyi indiki mərhələdə siyasi mənzərəni dəyişkən kimi xarakterizə edir, partiyaların qərarsız və skeptik seçicilərin dəstəyi uğrunda rəqabət apardığını yazır.

PASOK-KINAL partiyasının sədri Nikos Androulakis Baş nazir Kiriakos Mitsotakisin siyasətini tənqid edərək siyasi dəyişiklik çağırışı edib.

Yunanıstan mediasında aparılan təhlillərdə seçicilərin iqtisadi vəziyyət, yaşayış xərcləri, dövlət institutlarının fəaliyyəti və hökumətin siyasəti ilə bağlı mövqelərinin qarşıdakı kampaniyanın əsas mövzularından olacağı vurğulanır.

## Sudan və Efiopiya üsyançı qüvvələri dəstəkləməkdə ittiham olunur



Sudan və Efiopiya bir-birini ərazilərində fəaliyyət göstərən silahlı üsyançı qüvvələrə dəstək verməkdə ittiham edib.

AZƏRTAC "əl-Hədəs"ə istinadla xəbər verir ki, Sudan Silahlı Qüvvələrinin sözçüsü, briqada generalı Asim Avad Efiopiya tərəfindən səsləndirilən ittihamları rədd edərək onları "əsassız" adlandırıb.

Ölkəsinin digər dövlətlərin daxili işlərinə müdaxilə etmədiyini açıqlayan Sudan ordusunun sözçüsü Efiopiya tərəfini dəqiqliyə və məsuliyyətə riayət etməyə, məsələlərlə bağlı rəsmi kanallardan istifadə etməyə çağırıb.

Bununla yanaşı, Sudan Silahlı Qüvvələri qiyamçı Çevik Dəstək Qüvvələrinə Efiopiya ərazisindən dəstəyin davam etdirilməsi barədə məlumatlara malik olduğunu açıqlayıb.

Eyni zamanda, Efiopiya Milli Müdafiə Qüvvələrinin Baş Qərargah rəisi Berhanu qonşu dövlətləri Əddis-Əbəbəyə qarşı çıxan qruplara dəstək verməkdə ittiham edib.

## Fransada Senat seçkilərinin ilk nəticələri: sağçı və mərkəzçi qüvvələr öndədir



Fransada keçirilən Senat seçkilərinin ilk nəticələri sağçı və mərkəzçi siyasi qüvvələrin üstünlük təşkil etdiyini göstərib.

AZƏRTAC xəbər verir ki, səsvermənin ilk turunda majoritar sistem üzrə 34 departament və ərazidə seçilən 59 senator mandatından 37-si müəyyənləşib. Seçilən senatorların 31-i əvvəl də Senatda fəaliyyət göstərib.

İlk nəticələrə əsasən, 6 yeni senator da mandat qazanıb. Majoritar sistem üzrə qalan 22 yer üçün ikinci tur keçiriləcək. Proporsional sistemlə seçilən 119 senator mandatı üzrə nəticələrin isə açıqlanması gözlənilir.

Ümumilikdə, Senatın 348 yerindən 178-i budəfəki seçkilərdə yenilənir. Səsvermədə 93 min 469 "böyük seçici"nin iştirak etmək hüququ olub. Onların 95 faizindən çoxunu bələdiyyə nümayəndələri təşkil edir. Seçici kollegiyasına, həmçinin deputatlar, regional və departament şuralarının üzvləri daxildir.

Fransada senatorlar altı il müddətinə dolayı ümumi səsvermə yolu ilə seçilirlər. Parlamentin yuxarı palatası hər üç ildən bir yarıbayarı yenilənir.

Budəfəki seçkilərdə ümumilikdə 1686 namizəd senator mandatı uğrunda mübarizə aparıb.

# Çin və ABŞ 60 milyard dollarlıq sövdələşmə barədə razılığa gəlib

Çin və ABŞ hər iki ölkədən idxal edilən 60 milyard dollarlıq mallara tarifləri azaltmaq barədə razılığa gəlib. Malların siyahısı Amerika qarğıdalısından kosmetikaya və Çin məişət texnikasından oyuncaqlara qədər geniş çeşiddə məhsulları əhatə edir.

AZƏRTAC xəbər verir ki, ABŞ və Çin arasındakı razılaşmaya əsasən, ölkələr hər biri 30 milyard dollar dəyərində həssas olmayan malların ticarəti üçün daha əlverişli tarif rejimi tövsiyə edib. "Reuters" agentliyinin məlumatına görə, bu barədə ABŞ-ın ticarət nümayəndəsi Ceymison Qrir bazar günü verdiyi açıqlamada bildirib.

Onun sözlərinə görə, bu, ABŞ üçün Çinə Amerika ixracatının təxminən 30 faizinin Çin bazarına çıxışının yaxşılaşdırılması deməkdir.

Qarşılıqlı tarif endirimləri və ticarət barışığının uzadılması Çinin Sədri Si Cinpin və ABŞ Prezidenti Donald Tramp arasında ötən həftə Vaşinqtonda keçirilən görüşün əsas nəticələri arasındadır.

Ağ Evin məlumatına görə, Çin qarğıdalı, buğda, ət, süd məhsulları, bitki yağları və yem daxil olmaqla müxtəlif kənd təsərrüfatı məhsullarından ibarət ABŞ mallarının siyahısına tarifləri azaltmağı planlaşdırır. Soya paxlası bu siyahıya daxil edilməyib. Pekin, həmçinin balıq və dəniz məhsulları, ağac, taxta-şalban, kosmetika və tibbi cihazlara tətbiq edilən rüsumları azaltmaq niyyətindədir.

Vaşinqton isə Çinin kiçik cihazlarına, süfrə qablarına, yorğanlarına və yataq dəstlərinə tətbiq edilən tarifləri azaldır. Siyahılara oyuncaqlar, pirotexnika, süni çiçəklər, Milad ağacı işıqları və digər bayram bəzəkləri, eləcə də uşaq avtomobil oturacaqları da daxil edilib.

Çinin Ticarət Nazirliyi bazar ertəsi günü ABŞ ilə ticarət barışığının yanvarın 10-dək uzadıldığını açıqlayıb.



# Aİ növbəti genişlənmə planı üzərində işləyir

## Bu dəfə 4 ölkəyə "yaşıl işıq" yandırılır

Yeni dünya nizamının formalaşdığı, qlobal güc mərkəzləri arasında rəqabətin kəskinləşdiyi bir mərhələdə Avropa əvvəlki geosiyasi çəkisini qorumaq üçün yeni reformalara əl atır. İqtisadi imkanlar, enerji təhlükəsizliyi, müdafiə potensialı və beynəlxalq proseslərə təsir imkanları baxımından yaranan yeni reallıqlar Avropa İttifaqını öz siyasətinə yenidən nəzər salmağa vadar edir. "Köhnə qitə" bu mərhələdə yalnız daxili problemlərin həlli ilə kifayətlənmək, yaxud mövcud imkanlarla kifayətlənmək niyyətində deyil. Əksinə, iqtisadi və siyasi dayaqlarını möhkəmləndirmək, yeni bazarlara çıxış imkanlarını artırmaq və coğrafi təsir dairəsini genişləndirmək istiqamətində addımlar atılır. Bu baxımdan Avropa İttifaqının genişlənmə siyasətinin yenidən ön plana çıxması xüsusi əhəmiyyət daşıyır. Birliyin yeni ölkələri öz sıralarına qəbul etməyə hazırlaşması təkcə üzvlərin sayının artırılması deyil, həm də Avropanın iqtisadi, siyasi və təhlükəsizlik imkanlarının genişləndirilməsi cəhdi kimi qiymətləndirilə bilər. Beləliklə, genişlənmə prosesi yeni geosiyasi reallıqlar fonunda Aİ-nin gələcək gücünü və rolunu müəyyənləşdirən əsas istiqamətlərdən birinə çevrilir.

### 4 ölkə üçün yol xəritəsi...

"Politico" yazır ki, Avropa İttifaqı bloka qoşulmağa ən yaxın hesab edilən 4 ölkə üçün ayrıca yol xəritələri hazırlayır. Nəşr təşəbbüsün hazırlanmasında iştirak edən iki yüksək vəzifəli Avropa Komissiyası rəsmisinə istinadən xəbər verir ki, Monteneqro, Ukrayna, Moldova və Albaniya üzvlük prosesinin irəliləməsi üçün addım-addım planların hazırlanacağı ölkələr arasında olacaq.

Hər bir yol xəritəsində namizəd ölkələr üçün xüsusi tələblər və fərdi klasterlər üzrə danışıqların başa çatdırılması üçün təxmini son tarixlər olacaq. "Politico" qeyd edir ki, bu yanaşma islahatların həyata keçirilməsinin hər bir namizədin unikal vəziyyətləri nəzərə alınmaqla danışıqların ardıcıl mərhələləri ilə əlaqələndirilməsinə imkan verəcək.



Nəşrin mənbələrinə görə, Ukrayna, Moldova, Monteneqro və Albaniya üzvlüyə ən çox hazırlıqlı namizədlər arasında hesab olunur, lakin danışıqlar prosesi yavaş gedir və konkret üzvlük tarixləri hələ müəyyən edilməyib.

Xatırladaq ki, Ukrayna və Moldova 2022-ci ilin iyun ayında Aİ namizədi statusu alıblar. "Politico" mənbələri təsdiqləyib ki, digər namizəd ölkələrə - Kosovo, Şimali Makedoniya və Bosniya və Herseqovinaya bu mərhələdə yol xəritələri təklif olunmayacaq. Nəşr yazır ki, yol xəritəsi təklif edilməyən ölkələr sırasında üzvlük prosesləri dayandırılmış Gürcüstan, Türkiyə və Serbiya da var.

### Yeni siyahı, köhnə meyarlar - Türkiyə niyə yoxdur?

Qeyd edək ki, mənzil-qərargahı Brüsseldə yerləşən və formal olaraq 1957-ci ildə yaranan təşkilata qurucu üzvlərin ardınca 1973-cü ildə Danimarka, İrlandiya və İngiltərə, 1981-ci ildə Yunanıstan, 1986-cı ildə Portuqaliya və İspaniya qoşulub. Aİ platformasında isə ilk qəbul 1995-ci ildə Avstriya, Finlandiya və İsveçin qismətinə düşüb. Ən böyük üzvqəbuletmə prosesi isə 2004-cü ildə baş verib. Həmin il Estoniya, Litva, Latviya, Çex Respublikası, Polşa, Kipr, Slovakiya, Sloveniya, Malta və Macarıstan Aİ-nin tamhüquqlu üzvü olmaq hüququ əldə ediblər. 2007-ci ildə təşkilatın sıralarına Rumıniya və Bolqarıstan, son olaraq 2013-cü ildə isə Xorvatiya qoşulub. 2020-ci il yanvarın 31-də isə hələlik yeganə hal olaraq Böyük Britaniya Avropa İttifaqını tərk edib.

Yeni genişlənmə planında diqqətçəkən məqam Türkiyə və ya Serbiya kimi dövlətlərin yer almamasıdır. Halbuki hər iki ölkə onilliklərdir namizəd statusundadır və Aİ ilə müzakirə mərhələlərini keçiblər. Müqayisə aparsaq, yeni siyahıda yer alan 4 ölkənin heç biri iqtisadi, demoqrafik və siyasi təsir gücü baxımından Türkiyə ilə eyni səviyyədə deyil. Siyasi mütəxəssislər isə etiraf edir ki, Moldova və Ukrayna isə uzunmüddətli münaqişələr və iqtisadi çətinliklər fonunda hələ Aİ standartlarından uzaqdır. Türkiyə həm də ən uzunmüddətli namizəd sayılır. Rəsmi Ankara 1987-ci ildə Aİ-yə üzvlük üçün müraciət edərək 1999-cu ildə namizəd statusu alıb. 2005-ci ilə qədər tərəflər rəsmi olaraq Ankaranın statusu ilə bağlı danışıqlar aparıblar. Lakin fikir ayrılıqları səbəbindən proses bir neçə dəfə dayandırılıb. 2016-cı ildən danışıqlar prosesi, xüsusən də, Türkiyənin qaçqın axınını öz ərazisində saxlamaqla Avropanı miqrasiya böhranından çıxarmaqda göstərdiyi yardıma görə bərpa olunsa da, son 9 il ərzində Ankara danışıqlar prosesini başa çatdıra bilməyib. İsveçin NATO yolunu açmaqla isə Türkiyə yenidən Aİ üzvü olmağa ümidlənsə də, ortada nəticə yoxdur.

Belə olan halda sual yaranır: nəyə görə Aİ başqa ölkələri daha "uyğun" hesab edir? Siyasi texnoloqların fikrincə, bu, sırf siyasi seçimdir. Avropa İttifaqı hazırda öz təhlükəsizlik buferini genişləndirməyə çalışır. Ukraynanın və Moldovanın bu siyahıya daxil edilməsi Rusiya qarşısında siyasi baryer yaratmaq məqsədi daşıyır. Türkiyə məsələsinə gəlincə, bu dövlətin regional və geosiyasi çəkisi Aİ-nin struktur balansını poza bilər. Brüssel üçün "idarəolunan üzvlər" konsepsiyası daha uyğundur. Türkiyə isə öz milli maraqları çərçivəsində müstəqil siyasət yürüdür və bu, Aİ-nin "vahid qərar" modelinə uyğun gəlmir.

### Paris və Berlin Kiyevə "yol" açır...

Bu fikirləri "Financial Times"ın ayrı-ayrı sənədlərə istinadən Fransa və Almaniyanın Aİ-yə üzvlükdən əvvəlki mərhələdə Ukraynaya "simvolik güzəştlər" verməklə bağlı xəbəri də təsdiqləyir. Belə ki, qəzetin məlumatına görə, Berlin Ukraynaya "assosiativ üzv" statusu verməyi təklif edir ki, bu da Kiyevə nazirlərin və liderlərin görüşlərində iştirak etməyə imkan verəcək, lakin səsvermə hüququ və ya birliyin ümumi büdcəsinə çıxış əldə etməyəcək. Paris isə bu müvəqqəti üzvlüyü "inteqrasiya olunmuş dövlət statusu" adlandırır - bu, Ukraynanın Aİ-yə tam üzv olana qədər Ümumi Kənd Təsərrüfatı Siyasətində və Avropa maliyyələşdirmə proqramlarında iştirakını istisna edir. Avropa Komissiyasının (AK) iki yüksək vəzifəli rəsmisinin sözlərinə görə, müvafiq sənədlərin ümumi mahiyyəti, ehtimal ki, Aİ-nin Ukrayna üçün son təklifinə yaxın olacaq.

Nəşrin qeyd etdiyi kimi, Paris və Berlinin təklifləri AK-nın "tərs genişlənmə" konsepsiyasının demək olar ki, hamı tərəfindən rədd edilməsindən sonra ortaya çıxıb. Bu konsepsiyaya əsasən, Ukrayna bütün meyarlara cavab verməndən Aİ-nin tamhüquqlu üzvü ola bilər və sonra müəyyən meyarlar yerinə yetirildikcə tədricən maliyyə və digər güzəştlər əldə edə bilər.

Nəşr qeyd edir ki, Avropa Komissiyasının ideyası ilə Fransa və Almaniyanın təklifləri arasındakı əsas fərq Ukraynanın Aİ üzvü ola biləcəyi və birliyin idarəetmə şuralarında səsvermə hüququ əldə edə biləcəyi vaxtdır. Bundan əlavə, FT-yə görə, "yüngül" üzvlük formatına Aİ ilə qarşılıqlı müdafiə haqqında bənd daxil ola bilər ki, bu da Kiyev üçün əsas üstünlüklərdən biri hesab olunur.

**P.İSMAYILOV**

# Vuçiç niyə istefa verdi?

Serbiya Prezidenti Aleksandar Vuçiç istefa verdiyini açıqlayıb. Onun istefasından sonra Milli Assambleyanın sədri Ana Brnabiç yeni prezident seçilənədək dövlət başçısının səlahiyyətlərini müvəqqəti icra edəcək.

Konstitusiyaya əsasən, yeni prezident seçkiləri dekabrın 27-dək keçirilməlidir.

Bundan əvvəl isə Serbiyada növbədənkənar parlament seçkilərinin oktyabrın 25-də keçirilməsi planlaşdırılırdı.

Aleksandar Vuçiç ilk dəfə 2 aprel 2017-ci il tarixində keçirilən seçkilərdə Serbiya Prezidenti seçilib. Həmin seçkilərdə o, səsvermənin elə ilk turundaca 55 faizdən çox səs toplayaraq qalib gəlib və 31 may 2017-ci ildə rəsmən vəzifəsinin icrasına başlayıb. Bu postda o, Tomislav Nikoliçi əvəzləyib. A.Vuçiç daha sonra 3 aprel 2022-ci ildə keçirilən seçkilərdə yenidən qalib gələrək ikinci müddətə Prezident seçilib.




### Vuçiçin Baş nazir olmaq istəyi

A.Vuçiçin ikinci prezidentlik dövrü 2027-ci ilin aprelində tamamlansa da, o, erkən istefa vermənini qərarlaşdırırb. Bəs onun vaxtından əvvəl istefa verməsinin səbəbi nədir? Xatırladaq ki, Serbiya Prezidenti indiyədək bir neçə dəfə erkən istefa verə biləcəyini açıqlayıb. O, son açıqlamalarının birində bunun səbəblərinə aydınlıq gətirib. Bəlli olur ki, onun erkən istefası vermək qərarı bütövlükdə ölkənin siyasi səhnəsini birdəfəlik tərk etmək anlamında qəbul edilməməlidir. Bu, bir siyasi strategiyadır. Belə ki, Vuçiç növbədənkənar parlament seçkilərində hakim Serbiya Tərəqqipərvər Partiyasının siyahısına rəhbərlik edəcək və baş nazirliyə namizəd olacaq.

Vuçiç növbəti prezident seçkilərində üçüncü dəfə namizədliyini irəli sürə bilməz. Serbiya konstitusiyası bir şəxsin iki dəfədən artıq prezident seçilməsini qadağan edir. Bu reallığı nəzərə alan Vuçiç siyasi fəaliyyətini bundan sonra Baş nazir kimi davam etdirmək niyyətindədir. O, 2026-cı il oktyabrın 25-də keçiriləcək növbədənkənar parlament seçkilərində adi vətəndaş kimi iştirak etmək istəyini ifadə edib. Vəzifəsindən daha tez getməsinin səbəblərinə aydınlıq gətirən Vuçiç bildirib ki, prezidentlik müddətinin gələn ilin aprelinə qədər davam etməsini məqsədəuyğun saymır. O bildirib ki, növbədənkənar parlament seçkiləri kampaniyasına adi vətəndaş kimi qatılmaq istəyir. Vuçiç hakimiyyətdə olmadığı halda vətəndaşların ona və təqdim etdiyi proqram və planlara etibar edib-etmədiyini görmək istədiyini deyib. "İstəyirəm ki, adi vətəndaş kimi seçki kampaniyasına qoşulum və insanların mənə etibar edib-etmədiyini görüm. Mən hakimiyyətdə olmayacağam. Əgər mənə və təqdim etdiyim proqram, planlar və baxışlara etibar etmirlərsə, qoy başqası qalib gəlsin. Mənim bununla problemim yoxdur", - deyə Vuçiç bəyan edib.

Serbiya Prezidenti qeyd edib ki, qanunvericiliyə əsasən seçki kampaniyası zamanı prezident vəzifəsində qala bilər, lakin bunun ona hər hansı üstünlük verməsini istəmir. A.Vuçiç həmçinin vurğulayıb ki, istefadan sonra əsas məqsədi vətəndaşlardan hökumət rəhbəri vəzifəsinə namizəd kimi dəstək almaq olacaq. Xatırladaq ki, Vuçiç Serbiya Prezidenti seçilməzdən əvvəl də Baş nazir postunda çalışıb.

### Serbiyada Vuçiç dönəmi nə ilə yadda qalacaq?

Vuçiçin istefası fonunda tez-tez verilən suallardan biri onun prezidentlik dönəminin nə ilə yadda qalacağı ilə bağlıdır. Serbiyada Vuçiç dönəmi ilk növbədə iqtisadi islahatlar və birbaşa xarici investisiyalar bumu dövrü kimi səciyyələndirilir. O, ilk illərindən Beynəlxalq Valyuta Fondu (BVF) ilə birlikdə sərt qənaət tədbirləri və büdcə islahatları həyata keçirib. Bununla da Serbiya defolt təhlükəsindən qurtulub, büdcə kəsiri əhəmiyyətli dərəcədə azalıb və milli valyuta (dinar) sabitləşib. Qısa müddətdə Serbiya Qərbi Balkan regionunda birbaşa xarici investisiyaların 60 faizdən çoxunu cəlb edərək regionun iqtisadi drayverinə çevrilib. Xüsusilə Almaniya, Çin, Fransa və BƏƏ şirkətləri Vuçiçin siyasi iradəsi ilə yaradılan əlverişli investisiya mühitindən bəhrələnməklə ölkədə böyük zavodlar və istehsal sahələri açıblar. Həmçinin Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) yatırdığı investisiyalarla inşa olunan "Belgrade Waterfront" (Sahilboyu Belqrad) Avropanın ən böyük şəhərsalma layihələrindən biri sayılır. Bu kompleks Belqradın simasını tamam dəyişib və şəhəri böyük axına malik turizm mərkəzinə çevirib. Eləcə də Vuçiç dönəmində Serbiya "Türk Axını" qaz kəmərinin davamı olan "Balkan axını" layihəsini tamamlayaraq öz enerji təhlükəsizliyini və tranzit rolunu gücləndirməyə nail olub.

Vuçiç çoxvektorlu diplomatiyaya keçid etməklə ölkəsinin balanslaşdırılmış xarici siyasət kursunu müəyyənləşdirib. O cümlədən Vuçiçin dövründə Serbiya-Azərbaycan münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. İki ölkə suverenlik və ərazi bütövlüyü məsələlərində bir-birinə qətiyyətlə dəstək göstərir və hərbi-texniki sahədə əməkdaşlıq edir. Enerji əməkdaşlığı qarşılıqlı iqtisadi alaqələrin mühüm istiqamətidir.

Əlbəttə, Vuçiç dönəmi həm də ölkənin ictimai-siyasi həyatında bir sıra təlatümlü hadisələrlə yadda qalıb. O cümlədən onun Rusiya ilə əməkdaşlığı davam etdirməsi Avropada birmənalı qarşılanmayıb. Son illərdə ölkə həyatı tələbə hərəkatı ilə silkələnib. Bu gərginlik xüsusilə 2024-cü ilin noyabrında Novi-Sad şəhərində dəmiryol vağzalının beton örtüyünün uçması və 16 nəfərin ölümü ilə nəticələnən faciədən sonra yeni mərhələyə yüksəlib və ayrı-ayrı xarici güclərin, daxili müxalifətin təhriki ilə bir növ permanent hal alıb. Ölkədə növbədənkənar parlament seçkilərinə gedilməsinə qərar verilməsinin mühüm səbəblərindən biri də məhz daxili siyasi gərginlikdən qaynaqlanır.

**Mübariz FEYİZLİ**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**





## Tarixin, təbiətin və qonaqpərvərliyin ünvanı - Azərbaycan ...

# Həm iqtisadiyyat, həm mədəniyyət

### Turizm işçilərinin bayramıdır

Azərbaycan son dövrlər inkişaf tempini əhəmiyyətli dərəcədə sürətləndirərək, həm dünyanın aparıcı, həm də inkişaf etməkdə olan ölkələri sırasında öz mövqeyini möhkəmləndirib. Qısa müddət ərzində əldə edilən mühüm nailiyyətlər ölkənin milli maraqları əsasında formalaşıb. Həyata keçirilən milli strategiya, eləcə də yürüdülən ictimai, siyasi və mədəni siyasət ölkəmizin beynəlxalq müstəvidə müsbət imicinin formalaşmasına mühüm təsir göstərib. Şübhəsiz ki, əldə olunan bu uğurlar və nailiyyətlər iqtisadi inkişafa, eləcə də əhalinin sosial rifahının yüksəldilməsinə mühüm töhfə verib.

Əldə edilən sosial-iqtisadi nailiyyətlər və beynəlxalq müstəvidə formalaşan müsbət imic turizm sektorunun inkişafı üçün əlverişli zəmin yaradıb. Azərbaycanın zəngin tarixi-mədəni irsi, əlverişli coğrafi mövqeyi, müxtəlif təbii landşaftları və ilboyu turizm imkanları ölkənin turizm potensialının daha geniş şəkildə reallaşdırılmasına şərait yaradır. Bu baxımdan, turizm yalnız iqtisadi inkişafın mühüm istiqamətlərindən biri kimi deyil, həm də Azərbaycanın ölkələr və xalqlar arasında mədəni əlaqələrinin genişlənməsinə xidmət edən strateji sahə kimi xüsusi əhəmiyyət daşıyır.

Yeri gəlmişkən, bu gün ölkəmizdə turizm işçilərinin peşə bayramıdır. “Azərbaycan Respublikasında “Turizm işçiləri günü” peşə bayramının təsis edilməsi haqqında” sərəncamda dəyişiklik edildikdən sonra turizm işçiləri bu bayramı sentyabrın 29-da qeyd edirlər.

Turizm sənayesi kənardan yalnız səyahət, istirahət və əyləncə kimi görünə bilər. Əslində isə bu sahənin arxasında böyük və çoxşaxəli əmək dayanır. Otel işçisindən tur menecerinə, bələdçidən restoran əməkdaşına, nəqliyyat xidmətlərindən turizm üzrə mütəxəssislərə qədər yüzlərlə peşə turizm zəncirinin ayrılmaz hissəsidir. Turizm işçiləri bir növ ölkənin səfiri rolunu daşıyır. Xaricdən gələn qonağın Azərbaycan haqqında ilk təəssüratı bəzən məhz onun qarşılaşdığı insanın münasibətindən formalaşır. Gülərüz qarşılama, düzgün məlumat, peşəkar xidmət və qonaqpərvərlik bəzən tarixi abidə qədər yadda qalan olur.

### Azərbaycanın unikal məkanları

Azərbaycanın turizm imkanlarından danışarkən ilk diqqətçəkən məqam ölkənin coğrafi müxtəlifliyidir. Xəzər dənizinin sahillərindən Qafqaz dağlarına, yarımsəhra landşaftlarından meşələrə qədər çox fərqli təbiət mənzərələrini nisbətən kiçik bir ərazidə görmək mümkündür. Bakı müasir şəhər həyatı, qədim İçərişəhər, Xəzər sahili və memarlıq nümunələri ilə turistləri cəlb edir. Şəki tarix və memarlıq həvəskarları üçün xüsusi məkanlardan biridir. Şəkinin tarixi mərkəzi və Xan Sarayı 2019-cu ildə UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilib.

Qobustan isə qədim qayaüstü təsvirləri ilə Azərbaycanın ən maraqlı arxeoloji məkanlarından biridir. Xınalıq və “Köç Yolu” isə 2023-cü ildə UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilən obyektlər sırasındadır. Hazırda Azərbaycanın UNESCO Dünya İrsi Siyahısında 5 obyekti var.

Azərbaycanın təbiətinin daha bir qeyri-adi xüsusiyyəti palçıq vulkanlarıdır. Ölkədə 350-dən çox palçıq vulkanının olduğu bildirilir və bu göstərici Azərbaycanı palçıq vulkanları baxımından dünyanın ən diqqətçəkən ölkələrindən birinə çevirir.

### Turizm yalnız yay fəslindən ibarət deyil

Azərbaycan turizminin üstünlüklərindən biri də onun mövsümi müxtəlifliyidir. Yay aylarında Xəzər sahilləri və bölgələrə səyahətlər ön plana çıxırsa, qış aylarında dağ-xizək turizmi diqqət çəkir. Qış turizmi, sağlamlıq turizmi, qastronomiya, macəra və aktiv istirahət, mədəni turizm kimi istiqamətlər ölkənin turizm məhsulunu ilboyu rəngarəng saxlamağa imkan verir. Dövlət Turizm Agentliyi də Azərbaycanın xarici bazarlarda təqdimatı zamanı məhz bu müxtəlif istiqamətləri önə çıxarır.

Azərbaycan mətbəxi ayrıca bir turizm xəzinəsidir. Plov, dolma, kükü, piti, qutab, müxtəlif şirniyyatlar və regional mətbəx nümunələri ölkəyə gələn qonaqlar üçün yalnız yemək deyil, Azərbaycan mədəniyyətini tanımağın yollarından biridir. Bu baxımdan, qastronomik turizm son illər diqqətçəkən istiqamətlərdən birinə çevrilir.

### Rəqəmlər də Azərbaycanın turizm xəritəsini göstərir

Turizmin ölkə üçün əhəmiyyətini rəqəmlərdə də görmək mümkündür. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2026-cı ilin yanvar-avqust aylarında Azərbaycana dünyanın 191 ölkəsindən 1 milyon 586 min əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib. Bu, 2025-ci ilin eyni dövrü ilə müqayisədə 7,8 faiz az göstəricidir. Gələnlərin 27,9 faizini Rusiya, 19,4 faizini Türkiyə, 7,8 faizini İran və 4,8 faizini Gürcüstan vətəndaşları təşkil edib.

Maraqlı məqam ondan ibarətdir ki, turizm bazarının coğrafiyası yalnız qonşu ölkələrlə məhdudlaşmır. Hindistan, Səudiyyə Ərəbistanı, Pakistan, Çin, Özbəkistan, Qazaxıstan və digər ölkələrdən də Azərbaycana səfərlər həyata keçirilir. 2026-cı ilin ilk yeddi ayında Qazaxıstandan Azərbaycana gələnlərin sayı 5,5 faiz artaraq 62 min 079 nəfərə, Özbəkistandan gələnlərin sayı isə 40,2 faiz artaraq 42 min 288 nəfərə çatıb.

Beləliklə, son illər qeyri-neft iqtisadiyyatının daha da inkişafına nail olmağı əsas hədəf kimi seçən Azərbaycan özünün bütün bölgələr üzrə mövcud olan zəngin turizm potensialından daha səmərəli istifadə etməyə çalışır. Bu məqsədlə bütün turist marşrutları boyunca zəruri infrastruktur qurulur, mehmanxana və digər obyektlərin sayı artırılır, xidmət səviyyəsinin yüksəldilməsinə hesablanan tədbirlər görülür, respublikaya gəlib-getmə qaydaları asanlaşdırılır. Eyni zamanda, xarici ölkələrdə Azərbaycanın paytaxtının və bölgələrinin turizm potensialı təbliğ edilir.

***Yeganə BAYRAMOVA***

# Hər döyüntü həyatdır...

## Ürəyin ritmini pozan gündəlik vərdişlər

İnsanın həyatında elə bir səs var ki, onu eşitmirik, amma hər an bizimlədir. Ürəyimizin döyüntüsü kimi... Sakitlikdə, gündəlik qayğılarda, sevinc və həyəcan anlarında ürəyimiz fasiləsiz işləyir. Bəzən onun varlığını yalnız narahatlıq olanda xatırlayırıq. Bəlkə də buna görədir ki, hazırda dünyada ürək-damar sistemi xəstəliklərindən ölüm halları birinci yerdədir. Bütün dünya kardioloqları ürəyin qayğısına qalmağa, onun fasiləsiz işini pis vərdişlərlə pozmamağa çağırır.

Bu gün Dünya Ürək Günüdür. Bu əlamətdar gün ilk dəfə 1999-cu ildə Ümumdünya Ürək Federasiyasının təşəbbüsü ilə qeyd edilib. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST), UNESCO və digər aparıcı təşkilatlar həmin təşəbbüsü dəstəkləyiblər.

**Nələri dəyişməliyik?**

### 2030-cu ildə 23 milyonu ötəcək

Ürək-damar xəstəlikləri hər il 18 milyondan çox insanın həyatına son qoyur. ÜST-nın proqnozuna görə, bu göstərici 2030-cu ildə 23 milyonu ötəcək. Təşkilatın yaydığı məlumata görə, insult və ürəyin işemik xəstəliyi dünya üzrə bütün ölümlərin 31%-ni təşkil edir. Ürək-damar xəstəliklərindən əziyyət çəkənlərin sayının ildən-ilə artması bir sıra sosial faktorlar, ətraf mühitin təsiri, ekoloji amillər, düzgün qidalanmamaq, artıq çəki, piylənmə, oturaq həyat tərzi və son illər artan psixi-emosional gərginliklə əlaqədardır.

Həmçinin Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, infarkt və insult nəticəsində baş verən ölümlərin 80%-nin qarşısı sağlam qidalanma, pis vərdişlərin: siqaret və alkoqoldan istifadənin məhdudlaşdırılması, keyfiyyətli yuxu və fiziki aktivliyin artırılması ilə alına bilər.

### Kiçik addımlar da yetərli ola bilər

Sağlam həyat tərzinə keçid bəzən mürəkkəb və əlçatmaz görünür. Əslində isə ürəyimizi qorumaq üçün gündəlik həyatımızda atdığımız kiçik addımlar da əhəmiyyətlidir. Daha çox hərəkət etmək, mümkün olduqda piyada gəzmək, tərəvəz və meyvələrə, tam taxıllara və digər faydalı qidalara üstünlük vermək, duz qəbulunu azaltmaq, siqaretdən uzaq durmaq və çəkini nəzarətdə saxlamaq ürək sağlamlığı baxımından mühüm vərdişlərdir.

Ən əsası isə mütəmadi tibbi müayinələri unutmaq olmaz. Qan təzyiqinin, xolesterinin və qan şəkərinin nəzarətdə saxlanılması bəzi risklərin vaxtında müəyyənləşdirilməsinə kömək edə bilər.

***Yeganə BAYRAMOVA***

### Yalnız yaşlıların problemi deyil...



Cəmiyyətdə ürək-damar xəstəliklərinin yalnız yaşlı insanlara aid olduğu barədə yanlış təsəvvür mövcuddur. Əslində isə ürək sağlamlığına təsir edən bir sıra risk amilləri daha erkən yaşlardan formalaşır. Az hərəkət etmək, balanssız qidalanmaq, həddindən artıq duz və şəkər qəbul etmək, siqaret çəkmək, artıq çəki, yüksək qan təzyiqi və xolesterin səviyyəsinin yüksəlməsi ürək-damar sağlamlığı üçün risk yarada bilər.

Müasir həyatın tempi də bu məsələyə öz təsirini göstərir. Saatlarla kompüter və telefon qarşısında qalmaq, gündəlik fiziki aktivliyin azalması və davamlı stress insanın həyat tərzini dəyişdirir. Buna görə ürək sağlamlığının qorunması yalnız tibbi məsələ deyil, həm də gündəlik həyat vərdişləri ilə bağlı məsələdir.

*İdman*

## Azərbaycanı Dünya Kubokunda təmsil edəcək üzgüçülər bəlli olub




Bakıda keçiriləcək üzgüçülük üzrə Dünya Kubokunda Azərbaycanı təmsil edəcək idmançılar bəlli olub.

Azərbaycan Üzgüçülük Federasiyasından AZƏRTAC-ın sorğusuna cavab olaraq bildirilib ki, 16 idmançı yarışda qüvvəsini sınayacaq.

Bunlar Ramil Valizadə, Abdurrahman Rustamov, Səid Həmidov, Süleyman İsmayilzadə, Oqtay Hüseynov, Fərhad Shirməmmədli, Ramal Sadiqli, Amin Oruclu, Fatimə Alkərəmova, Məryam Cavadova, Anastasiya Boborikina, Anastassiya Qnussina, Mehri Abdurəhmanli, Vlastilina Xasyanova və Eqor Maynitskidir.

Qeyd edək ki, yarış oktyabrın 1-3-də Su İdmanı Sarayında keçiriləcək. Bakı mərhələsində dünyanın güclü üzgüçüləri müxtəlif məsafələrdə mübarizə aparacaqlar.

## Cüdoçularımız Xüsusi Olimpiya Açıq Turnirində 5 medal qazanıblar



Azərbaycan Respublikası Xüsusi Olimpiya Komitəsinin atletləri Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda keçirilən Xüsusi Olimpiya Açıq Cüdo Turnirində 5 medal qazanıblar.

Bu barədə “Report”a Azərbaycan Xüsusi Olimpiya Komitəsindən bildirilib.

Azərbaycan komandası yarışı 1 qızıl, 2 gümüş və 2 bürünc medalla başa vurub.

Turnirdə Kamran Quliyev G-10 divizionunda birinci, Sadiq Nəzirov G-2 divizionunda ikinci, Yusif Nəsirli isə G-7 divizionunda üçüncü yeri tutublar.

Adilə Niftəliyeva G-24 divizionunda üçüncü, kata üzrə mübarizədə isə ikinci pillədə qərarlaşıb.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4446**
**Sifariş: 1266**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova